
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 noyabr
2026-cı il,
cümə
№ 204 (7271)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

İlham Əliyevin 4 qızıl qaydası aktual olaraq qalır:

1. Vaxtı düzgün seçmək.

2. Avantüraya getməmək.

3. Dövləti risk altına salmamaq.

4. Minimum itki, maksimum nəticə!

Azərbaycançılıq - milli özünüdərkdən qələbələrə aparan yol...

Bax səh. 3

Azərbaycanın formalaşdırdığı reallıqlar...

Geniş geosiyasi maraqlarla uzlaşır

Aralıq seçkilərin nəticələrinin Vaşinqtonun Cənubi Qafqaza yanaşmasına ciddi təsir göstərəcəyi gözlənilmir

Bax səh. 4

Cənubi Qafqaz üçün yeni perspektivlər



Bax səh. 4

Dünyanın dialoq məkanı

Bax səh. 2

Azərbaycanın qabaqcıl milli dövlət idarəçiliyi təcrübəsi...

Azərbaycan qısa müstəqillik tarixində digər istiqamətlərdə olduğu kimi, dövlət idarəçiliyi sahəsində də mühüm uğurlar əldə edib. Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq dövlət idarəçiliyinin optimal, çevik institusional strukturunun formalaşdırılması, innovativ yanaşmaların tətbiqi yolu ilə bu sahədə şəffaflığın təmin olunması və inklüzivliyin artırılması məqsədilə davamlı islahatlar həyata keçirilir.

Qürurverici haldır ki, respublikamızın dövlət idarəçiliyi sahəsində qazandığı uğurlar beynəlxalq səviyyədə də təqdir olunur. Bakıda noyabrın 5-6-da "BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı" (UN Governance Innovation Summit: Advancing Future-Ready Institutions) adlı beynəlxalq sammitin keçirilməsi də bunun əyani təsdiqidir. Prezident İlham Əliyev tədbir iştirakçılarına müraciət ünvanlayaraq Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatlara diqqət çəkib. "Dövlət xidmətlərinin əlçatanlığı, şəffaflıq və rəqəmsallaşma dayanıqlı inkişafın mühüm şərtlərindəndir", - deyə ölkə Prezidenti vurğulayıb.

Dövlət xidmətlərində əsas keyfiyyət göstəricisi vətəndaş məmnunluğudur. Ölkəmizdə Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar əsasında dövlət idarəçiliyi sahəsində aparılan davamlı islahatlar da məhz bunu hədəfləyir. Prezident İlham Əliyev müraciətində Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatların nəticəsi olaraq 2012-ci ildə yaradılmış "ASAN xidmət" modelinə istinad edib. "ASAN xidmət" dövlət xidmətlərinin keyfiyyətli, innovativ və inteqrasiya olunmuş qaydada göstərilməsini təmin edən unikal bir modeldir. Ölkə Prezidenti onu dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidinə zəmin yaradan qabaqcıl milli idarəçilik təcrübəsi kimi səciyyələndirib.

Hazırda Azərbaycanda...

Bax səh. 2



Bax səh. 3

YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 46-cı iclasında iştirak edib

Azərbaycan-Böyük Britaniya münasibətləri yüksələn xətlə inkişaf edir

Bax səh. 5

Akvakultura sənayesinin inkişafı və hədəfləri

Bax səh. 6

Vergi güzəştlərinin əhatə dairəsi genişləndirilir

Bax səh. 6

Təşəbbüsdən iqtisadi gücə...

Bax səh. 6

Tikinti və şəhərsalma üçün faydalı platforma

Bakıda Azərbaycanın ilk ixtisaslaşmış beynəlxalq daşınmaz əmlak və investisiya sərgisi "AIREX 2026" işə başlayıb. Sərgidə Avropa və Asiya ölkələrini təmsil edən 70-dən çox yerli və beynəlxalq şirkət iştirak edir. Tədbir "PAŞA Property Management" və "Baku Expo Management"in təşkilatçılığı, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri, Qarabağ Dirçəliş Fondu, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AZPROMO və Azərbaycan Daşınmaz Əmlak Rieltorlar Assosiasiyasının dəstəyi ilə keçirilir.

"AIREX 2026" beynəlxalq daşınmaz əmlak və tikinti sərgisi Azərbaycanın tikinti, şəhərsalma, qiymətləndirmə və daşınmaz əmlak sektorlarının beynəlxalq əməkdaşlığının genişləndirilməsi baxımından mühüm platforma rolunu oynayır. Yerli və xarici yaşayış, kommersiya layihələrinin təqdimatı, sahə mütəxəssisləri və beynəlxalq nümayəndələrin iştirakı ilə investorlar və sahibkarlar üçün birbaşa görüşlərin keçirilməsi sərginin əhəmiyyətini əks etdirir.

"Şəhərsalma və Memarlıq İli"nə təsadüf edən belə bir beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycanın əmlak bazarı və tikinti sektoru, infrastruktur və innovasiya sahəsi üzrə iştirakçılar üçün mühüm əhəmiyyət daşıyır. Tədbir müasir şəhərsalma həllərinin, dayanıqlı tikinti prinsiplərinin və rəqəmsal texnologiyaların müzakirəsi Azərbaycanın urbanizasiya proseslərinin, infrastruktur inkişafının və daşınmaz əmlak bazarının beynəlxalq təcrübə ilə uzlaşdırılması üçün əlavə imkanlar yaradır. Xarici investorların yerli bazara marağının artması əmlak haqqında etibarlı məlumatlara, şəffaf qiymətləndirmə mexanizmlərinə və beynəlxalq standartlara uyğun peşəkar xidmətlərə tələbatı da artırır. Bir sözlə, tədbir tikinti sektoruna aid ən qabaqcıl texnologiyalar, yeni inşaat modelləri üzrə təcrübələrin bölüşülməsi, təchizatçılar və tikinti peşəkarlarının yeni işgüzar əlaqələrinin qurulması, potensial tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi baxımından əlverişli fürsət və imkanlar deməkdir.

Sərgi çərçivəsində təşkil olunan beş panel iclasda Azərbaycanın şəhərsalma perspektivləri, yeni yaşayış və infrastruktur layihələri...

Bax səh. 5



Bax səh. 7



Bax səh. 7

“BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə hazır təsisatların inkişafı” beynəlxalq tədbirinin iştirakçılarına



Hörmətli tədbir iştirakçıları,

Sizi “BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə hazır təsisatların inkişafı” mövzusunda beynəlxalq tədbirdə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Dövlət xidmətlərinin əlçatanlığı, şəffaflıq və rəqəmsallaşma dayanıqlı inkişafın mühüm şərtlərindəndir. Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatların nəticəsi olaraq 2012-ci ildə dövlət xidmətlərinin keyfiyyətli, innovativ və inteqrasiya olunmuş qaydada göstərilməsini təmin edən “ASAN xidmət” yaradılmışdır.

Dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidinə zəmin yaradan “ASAN xidmət” bu gün yalnız qabaqcıl milli idarəçilik təcrübəsi deyil, həm də beynəlxalq maraq doğuran unikal Azərbaycan brendidir. Bu təcrübəmizin 50-dən çox ölkə ilə paylaşılması və artıq müxtəlif ölkələrdə uğurlu tətbiqi “ASAN xidmət”in dövlət xidmətlərinin təşkilində səmərəli institusional model olduğunu sübut edir.

Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşan “ASAN xidmət”in fəaliyyəti BMT tərəfindən də yüksək qiymətləndirilir. “ASAN xidmət”in 2015-ci ildə BMT-nin “Dövlət Xidmətləri Mükafatı”na, 2019-cu ildə isə “Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində Xüsusi Mükafat”a layiq görülməsi nailiyyətlərimizin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir.

BMT ilə əməkdaşlıq bu təcrübəmizin daha geniş coğrafiyada təşviqi üçün yeni imkanlar yaradır. 2024-cü ildə Azərbaycan ilə BMT arasında imzalanmış Töhfə Sazişi “ASAN xidmət” nümunəsinin dörd qitədə təbliğini ehtiva edir.

Azərbaycan bundan sonra da dayanıqlı inkişaf məqsədlərinin təşviqini dəstəkləyəcək, keyfiyyətli dövlət xidmətlərinin göstərilməsi istiqamətində beynəlxalq fəaliyyətə töhfə verəcəkdir.

Əminəm ki, bugünkü tədbir mütərəqqi ideya və yeni yanaşmaların təşviqinə, habelə konkret təşəbbüslərin irəli sürülməsinə xidmət edəcəkdir.

Sammitin işinə uğurlar, bütün iştirakçılara səmərəli müzakirələr arzulayıram.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 5 noyabr 2026-cı il

Beynəlxalq səviyyədə də təqdir olunur

Azərbaycanın qabaqcıl milli dövlət idarəçiliyi təcrübəsi...

İlham Əliyev: “ASAN xidmət” beynəlxalq maraq doğuran unikal Azərbaycan brendidir

Azərbaycan qısa müstəqillik tarixində digər istiqamətlərdə olduğu kimi, dövlət idarəçiliyi sahəsində də mühüm uğurlar əldə edib. Ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq dövlət idarəçiliyinin optimal, çevik institusional strukturunun formalaşdırılması, innovativ yanaşmaların tətbiqi yolu ilə bu sahədə şəffaflığın təmin olunması və inklüzivliyin artırılması məqsədilə davamlı islahatlar həyata keçirilir.

Qürurverici haldır ki, respublikamızın dövlət idarəçiliyi sahəsində qazandığı uğurlar beynəlxalq səviyyədə də təqdir olunur. Bakıda noyabrın 5-6-da “BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı” (UN Governance Innovation Summit: Advancing Future-Ready Institutions) adlı beynəlxalq sammit keçirilməsi də bunun əyani təsdiqidir. Prezident İlham Əliyev tədbir iştirakçılarına müraciət ünvanlayaraq Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatlara diqqət çəkib. “Dövlət xidmətlərinin əlçatanlığı, şəffaflıq və rəqəmsallaşma dayanıqlı inkişafın mühüm şərtlərindəndir”, - deyə ölkə Prezidenti vurğulayıb.

Dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidi - “ASAN xidmət” modeli unikal nümunə kimi

Dövlət xidmətlərində əsas keyfiyyət göstəricisi vətəndaş məmnunluğudur. Ölkəmizdə Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar əsasında dövlət idarəçiliyi sahəsində aparılan davamlı islahatlar da məhz bunu hədəfləyir. Prezident İlham Əliyev müraciətində Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində aparılan ardıcıl islahatların nəticəsi olaraq 2012-ci ildə yaradılmış “ASAN xidmət” modelinə istinad edib. “ASAN xidmət” dövlət xidmətlərinin keyfiyyətli, innovativ və inteqrasiya olunmuş qaydada göstərilməsini təmin edən unikal bir modeldir. Ölkə Prezidenti onu dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni mərhələyə keçidinə zəmin yaradan qabaqcıl milli idarəçilik təcrübəsi kimi səciyyələndirib.

Hazırda Azərbaycanda 28 “ASAN xidmət” mərkəzi fəaliyyət göstərir. Vətəndaşlar paytaxt Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi, Balakən və digər ünvanlarda da “ASAN xidmət” mərkəzlərinin fəaliyyətindən bəhrələnirlər.

“ASAN xidmət” mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 360-dan çox, “ASAN Kommunal” mərkəzlərində isə “Azərişıq” ASC, “Azərsu” ASC və “Azəriqaz” İB tərəfindən 55 növ xidmət göstərilir. Paytaxtda və regionlarda hər gün “ASAN xidmət” mərkəzlərinə təxminən 40 min vətəndaş müraciət edir və onların məmnunluq səviyyəsi 99 faizin üzərində olur. Eyni zamanda, regionlarda 10 səyyar “ASAN xidmət” avtobusu və səyyar “ASAN qatar” vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir. Əsas məqam ondan ibarətdir ki, vətəndaşlarımız “ASAN xidmət”ə inanırlar. Bu inamın əsasında isə yüksəksəviyyəli xidmət, şəffaflıq, müxtəlif xidmətlərə eyni bir məkanda əlçatanlıq və əlbəttə ki, heyətin peşəkarlığı dayanır.

Hazırda Azərbaycanın inkişafı elə yüksək səviyyəyə çatıb ki, ölkəmiz həmçinin intellektual məhsul ixracının coğrafiyasını genişləndirir. O cümlədən artıq “ASAN xidmət”in şöhrəti ölkə hüdudlarını aşıb. Prezident İlham Əliyev qürur hissi ilə vurğulayıb ki, “ASAN xidmət” beynəlxalq maraq doğuran unikal Azərbaycan brendidir. “Bu təcrübəmizin 50-dən çox ölkə ilə paylaşılması və artıq müxtəlif ölkələrdə uğurlu tətbiqi “ASAN xidmət”in dövlət xidmətlərinin təşkilində səmərəli institusional model olduğunu sübut edir”, - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycanın intellektual brendi sayılan “ASAN xidmət”ə dünyada da marağın getdikcə artması ölkəmizin böyük uğurudur. İndiyədək əlçatanlığı ilə yüksək vətəndaş məmnunluğu yaradan bu struktur bir çox beynəlxalq qurumlar və ekspertlər tərəfindən təqdirəlayiq hesab olunub. Artıq ayrı-ayrı ölkələrdə də bu modelin tətbiqinə başlanıb. Azərbaycanın “ASAN xidmət” modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum təsis edilib. Cari il yanvarın 14-də “ASAN xidmət”in sorağı daha bir uzaq ünvandan - dost Pakistandan gəlib. Bu ölkənin İslamabad şəhəri dünyada “ASAN xidmət” mərkəzinin fəaliyyətə başladığı növbəti ünvan olub. İslamabadda baş tutan açılış mərasimdə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif, Pakistan hökumətinin üzvləri, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak ediblər.

Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya, Monteneqro və ISESCO təşkilatı ilə əməkdaşlığa dair Anlaşma memorandumları imzalanıb. 2014-cü ildə “ASAN xidmət” İSO 9001:2008 və OHSAS 18001:2007 standartları üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülüb. “ASAN xidmət”, həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olub. Bundan başqa, ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın “ASAN xidmət” modelindən faydalanmaq tövsiyə olunub.

Perspektivdə isə “ASAN xidmət” brendinin dünyada əhatə edəcəyi coğrafiyaların daha da genişlənəcəyi gözlənilir. Bunu son vaxtlarda Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrı-ayrı ölkələrdən əməkdaşlıqla bağlı artan müraciətlər də təsdiqləyir. Beynəlxalq əməkdaşlığa dair son nümunələrdən biri kimi İndoneziya və Azərbaycan arasında ötən ilin dekabr ayında onlayn formatda baş tutan dövlət xidmətləri üzrə simpoziumu göstərmək mümkündür. İmzalanmış sənədlərə uyğun olaraq hazırda İndoneziya Respublikasında “ASAN xidmət” təcrübəsi əsasında yaradılmış 300-dən çox Dövlət Xidmət Mərkəzi fəaliyyət göstərir.

Artıq Avropa İttifaqının üzv dövləti olan Rumıniya da “ASAN xidmət” modelinə böyük maraq göstərir. Ötən ilin dekabr ayında Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Rumıniya Hökumətinin Baş Katibliyinin dəvəti əsasında bu ölkəyə səfəri baş tutub. Səfər çərçivəsində “ASAN xidmət”in Rumıniyada tətbiqi ilə bağlı növbəti müzakirələr aparılıb. Eyni zamanda, Rumıniya Hökumətinin Baş Katibliyinin təşkilatçılığı ilə keçirilən “Dövlət Sektorunda İnnovasiya Forumu”nda “ASAN xidmət”ə dair mükafat ilk dəfə olaraq Avropa İttifaqına üzv ölkənin nümayəndələrinə təqdim olunub. Xatırladaq ki, bundan öncəki dövrdə müvafiq mükafat Afrika qitəsində dövlət xidmətləri sahəsində qabaqcıl nailiyyətlər əldə etmiş dövlətlərin nümayəndələrinə təqdim edilib.

Həmçinin bir qədər bundan əvvəl Sudan Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Müaviyə Osman Xalidin rəhbərlik etdiyi nümayəndə heyəti “ASAN xidmət” mərkəzinin fəaliyyəti ilə tanış olub. Nazir müavini “ASAN xidmət” mərkəzlərinin fəaliyyətinin, buradakı innovativ yeniliklərin onlarda yüksək təəssürat yaratdığını və sözügedən təcrübənin öz ölkəsində tətbiqində maraqlı olduqlarını ifadə edib.

Mübariz ABDULLAYEV

Azərbaycanın beynəlxalq maraq doğuran brendi

Dünyanın dialoq məkanı

Azərbaycan paytaxtı yenə də qonaq-qaralıdır. Bakı növbəti nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi edir. Belə ki, paytaxtımızda noyabrın 5-6-da “BMT (Birləşmiş Millətlər Təşkilatı) İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı” (UN Governance Innovation Summit: Advancing Future-Ready Institutions) adlı beynəlxalq tədbir keçirilir.

Tədbirdə 100-dən çox ölkənin nazirləri və yüksəksəviyyəli rəsmiləri, beynəlxalq və regional təşkilatların rəhbər vəzifəli şəxsləri, inkişaf tərəfdaşları, eləcə də özəl sektorun və akademik dairələrin təmsilçiləri iştirak edirlər.

Mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkan - dünyada Azərbaycana artan inam

Azərbaycanın coğrafi yerləşməsi elədir ki, ölkəmiz Avrasiyada təbii körpü rolunu oynayır. Respublikamızın ərazisindən Şərq-Qərb, Şimal-Cənub, Transxəzər (Orta Dəhliz) kimi marşrutlar keçir və onların bir-biri ilə optimal bağlantısı təmin edilib. Buna görə də ayrı-ayrı ölkələr və daşıma şirkətləri respublikamızdan keçən marşrutlardan bəhrələnməyə üstünlük verirlər.



Lakin Azərbaycanın üstünlüyü yalnız coğrafiya ilə bağlı deyil. Ölkəmiz həmçinin həyata keçirdiyi ardıcıl siyasəti ilə də müxtəlif mədəniyyətlər və ölkələr arasında körpülər yaradır, birləşdirici funksiya yerinə yetirir. Azərbaycan nifrətə, ayrı-seçkiçiliyə, irqçiliyə, ikili standartlara “yox” deyir və barışdırıcı missiya yerinə yetirir. Ölkəmizin geniş məzmuna malik humanitar diplomatiyası, demək olar ki, bütün dünyanı əhatə edir. Qlobal pandemiya dövründə Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına, eləcə də ehtiyacı olan ayrı-ayrı ölkələrə dəstək göstərdi, peyvənd millətçiliyinə qarşı çıxdı. Prezident İlham Əliyev davamlı olaraq qlobal həmrəylik təşəbbüslərindən çıxış edir.


Eyni zamanda, Azərbaycanın tolerant mühiti var. Dünyada mədəniyyətlərin birgə mövcudluğunun inkar edildiyi, bununla bağlı ciddi problemlər yaşandığı bir dönəmdə Azərbaycanın dövlət başçısı beynəlxalq səviyyəli tribunalardan multikulturalizmi təşviq edir, bəşəriyyətin nicat yolunun məhz yanaşı yaşamaqda olduğunu bildirir. Respublikamızın təcrübəsi buna nümunədir. Azərbaycanda fərqli milli, dini kimliyə malik insanlar arasında heç bir fərq qoyulmur və onlar gələcəyə böyük inamla öz həyatlarını qururlar.

Məhz ölkəmizin malik olduğu bu kimi reallıqlar dünyada Azərbaycana və onun Liderinə böyük hörmət qazandırıb. Dünya Azərbaycana inanır və hörmət bəsləyir. Ayrı-ayrı beynəlxalq təşkilatların özlərinin mötəbər tədbirlərinə ev sahibliyi hüququnu respublikamıza həvalə etmələri də bunu əyani şəkildə təsdiqləir.

Ölkəmiz dünya gündəliyinin aktual məsələlərinin müzakirə olunduğu mühüm beynəlxalq tədbirlərə bir qayda olaraq məsuliyyətlə ev sahibliyi edir və bu zaman yüksək standartlar müəyyənləşdirir. 2024-cü ilin noyabr ayında Azərbaycanın ev sahibliyi ilə keçirilən COP29 konfransında bir sıra önəmli substantiv nəticələr əldə olunub. COP29-dan sonra cari ilin mayında ölkəmizdə daha bir mötəbər beynəlxalq tədbir - Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) baş tutdu. Oktyabrın 15-də Bakıda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə Görüşü keçirildi. Oktyabr ayında Bakı həmçinin “Ortaq gələcək naminə dialoq” mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edib. Bir sözlə, siyahı çox uzundur və bütün bunlar Azərbaycanın dünyada dialoq məkanı kimi qəbul olunduğunu təsdiqləyir.

BMT ilə sıx əməkdaşlıq

Bakıda “BMT İdarəetmə İnnovasiyaları Sammiti: Gələcəyə Hazır Təsisatların İnkişafı” adlı beynəlxalq tədbirin keçirilməsi dünya birliyinin, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının ölkəmizə inamının daha bir göstəricisidir. Respublikamız digər istiqamətlərdə olduğu kimi, Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə də BMT ilə sıx əməkdaşlıq edir. Ölkəmiz qurum tərəfindən bəyan olunan DİM məqsədlərinə çatmaqdan ötrü koordinasiyalı fəaliyyətlərini genişləndirir və müvafiq hesabatları da vaxtında təqdim edir. O cümlədən, Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşan “ASAN xidmət”in fəaliyyəti BMT tərəfindən də yüksək qiymətləndirilir. “ASAN xidmət”in 2015-ci ildə BMT-nin “Dövlət Xidmətləri Mükafatı”na, 2019-cu ildə isə “Rəqəmsal idarəetmənin tətbiqi ilə dövlət xidmətlərinin inkişafı sahəsində Xüsusi Mükafat”a layiq görülməsi nailiyyətlərimizin beynəlxalq səviyyədə tanınmasının göstəricisidir. “BMT ilə əməkdaşlıq bu təcrübəmizin daha geniş coğrafiyada təşviqi üçün yeni imkanlar yaradır. 2024-cü ildə Azərbaycan ilə BMT arasında imzalanmış Töhfə Sazişi “ASAN xidmət” nümunəsinin dörd qitədə təbliğini ehtiva edir.



Azərbaycan bundan sonra da dayanıqlı inkişaf məqsədlərinin təşviqini dəstəkləyəcək, keyfiyyətli dövlət xidmətlərinin göstərilməsi istiqamətində beynəlxalq fəaliyyətə töhfə verəcəkdir.

Qeyd edək ki, sammit çərçivəsində dövlət idarəçiliyi sahəsində innovasiyalar, dövlət sektorunun transformasiyası, dövlət xidmətlərinin innovativ və inteqrasiya olunmuş qaydada göstərilməsi üçün çoxşaxəli yanaşmaların tətbiqi ilə bağlı Azərbaycanda həyata keçirilən islahatlar, habelə bu sahədə Cənub-Cənub, Şimal-Cənub və üçtərəfli əməkdaşlıq kimi mühüm mövzuların müzakirəsi aparılır.

Mübariz FEYİZLİ

06 noyabr 2026-cı il, cümə № 204 (7271)

Azərbaycançılıq - milli özünüdərkdən qələbələrə aparan yol...

İlham Əliyev: Əgər bizdə - Azərbaycanda yaşayan bütün xalqlar arasında qarşılıqlı hörmət, əhatəliliyin real platforması olmasaydı, biz heç zaman uğur qazana bilməzdik

Dünya miqyasında multikultural dəyərlərin ciddi təhdidlərlə üzləşdiyi, irqçiliyin, milli-dini dözümsüzlüyün, ksenofobiyanın artdığı bir dövrdə Vətənimiz Azərbaycanın mənzərəsi tamam fərqli cəhətlərlə-multikulturalizm və tolerantlıqla səciyyələnir. Asiya ilə Avropanın "təbii körpüsü" adlandırılan, mədəniyyətlərin, sivilizasiyaların, Şərq və Qərb mədəniyyətlərinin qovşağı sayılan Azərbaycan əsrlərdən bu yana fərqli dinlərin, mədəniyyətlərin, müxtəlif etnik qrupların təmsilçilərinin rahat, sərbəst şəkildə yaşadıqları məkan kimi tanınmaqdadır. Oktyabrın 27-də Bakıda keçirilən "Ortaq gələcək naminə dialoq" mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bildirib ki, biz Avropa ilə Asiya arasında yerləşirik. Əsrlər boyu Azərbaycan Asiya ilə Avropa arasında mədəniyyət körpüsü olub: "Multikulturalizm ənənələri, dini və etnik dözümlülük xalqımızın əsrlər boyu yaşatdığı meyarlar olub və biz onları yüksək dəyərləndiririk. Azərbaycanın uğurlu və sabit inkişafının təməlində dayanan əsas səbəblərdən biri isə cəmiyyətimizdəki ahəngdarlıqdır. Bütün etnik qrupların, dinlərin nümayəndələrinin Konstitusiyamıza uyğun olaraq, nəinki bərabər hüquqları var, onlar, həmçinin bir ailə kimi yaşayırlar".

Tolerantlıq, multikulturalizm nümunəsi sayılan Azərbaycan bu gün də öz dəyərlərinə sadiqlik nümayiş etdirir. Müstəqil Azərbaycanın memarı Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulan azərbaycançılıq ideologiyası bu münasibətlər sistemini daha da möhkəmləndirib, daha da gücləndirib. Çoxmillətli və çoxkonfessiyalı ölkə sayılan Azərbaycanda bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində - vahid milli ideologiya ətrafında birləşərək yaşayırlar.



Azərbaycançılıq ideologiyası daxili sabitliyin və milli həmrəyliyin əsas dayağıdır

Azərbaycanın müstəqillik tarixinin ayrı-ayrı mərhələlərinə nəzər saldıqda aydın görünür ki, ölkəmiz üçün ən böyük sınaqlardan biri milli birliyin qorunması, cəmiyyətdə parçalanma meyillərinin aradan qaldırılması və dövlətçilik maraqlarının ümumi məqsədə çevrilməsi olub. Xüsusilə müstəqilliyin ilk illərində siyasi qarşıdurmalar, hakimiyyət böhranı, ictimai gərginlik və müxtəlif qrupların maraqlarının toqquşması dövlətçiliyimizi ciddi təhlükə qarşısında qoymuşdu. Belə bir şəraitdə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkədə yeni inkişaf mərhələsinin əsası qoyuldu. Azərbaycançılıq ideologiyasının dövlət siyasətinin mühüm istiqamətinə çevrilməsi isə cəmiyyətin vahid milli məfkurə ətrafında birləşməsinə imkan yaratdı.

Azərbaycançılıq ideologiyası insanları siyasi baxışlarından, sosial mövqelərindən, etnik və dini mənsubiyyətlərindən asılı olmayaraq vahid dövlətçilik mənafeləri ətrafında birləşdirir. Azərbaycançılıq ayrı-ayrı fərqlilikləri qarşıdurma mənbəyinə deyil, milli zənginliyin tərkib hissəsinə çevirir. Məhz bu yanaşma ölkəmizdə ictimai münasibətlərin sağlamlaşmasına, qarşılıqlı etimadın möhkəmlənməsinə və daxili sabitliyin dayanıqlı xarakter almasına zəmin yaradıb. Bu gün Azərbaycanın regional və beynəlxalq müstəvidə əldə etdiyi uğurların arxasında da cəmiyyətin dövlətçilik ideyalarına bağlılığı, milli maraqlar ətrafında həmrəyliyi dayanır. Deməli, azərbaycançılıq yalnız ideoloji seçim deyil, həm də sabitliyin qorunmasının və gələcək inkişafın strateji təminatıdır. Prezident İlham Əliyev çıxışında bildirib ki, birliyin bu cür böyük təzahürü bir daha cəmiyyətimizin durumunu göstərir: "Bir daha deyirəm ki, əgər bizdə - Azərbaycanda yaşayan bütün xalqlar arasında qarşılıqlı hörmət, əhatəliliyin real platforması olmasaydı, biz heç zaman uğur qazana bilməzdik. Çox fərəhlənirik ki, həmin dəyərləri əsrlər boyu qoruyub saxlaya bilmişik".



Hüquq qarşısında bərabərlik azərbaycançılığın əsas prinsiplərindəndir

Azərbaycançılıq ideologiyasının mühüm istiqamətlərindən biri cəmiyyətdə hüquq bərabərliyinin, ədalət və qanunun aliliyinin təmin olunmasıdır. Bu məfkurə hər bir vətəndaşın mənsubiyyətindən, dini etiqadından, sosial statusundan, dilindən və siyasi baxışlarından asılı olmayaraq özünü Azərbaycan dövlətinin bərabərhüquqlu üzvü hesab etməsini nəzərdə tutur. Başqa sözlə, ölkəmizdə hər kəsin dövlət qarşısında hüquqları olduğu kimi, üzərinə düşən vəzifə və məsuliyyətlər də eynidir. Milli ideologiyanın birləşdirici gücü də məhz bu yanaşmadan qaynaqlanır. Çünki vətəndaş həmrəyliyi yalnız ortaq dəyərlərin deyil, eyni zamanda hamı üçün bərabər hüquqi prinsiplərin mövcudluğu şəraitində möhkəmlənə bilər.

Azərbaycan Respublikasının Konstitusiyası bu prinsipin hüquqi təminatını yaradır. Əsas Qanunumuzun 25-ci maddəsində bərabərlik hüququ təsbit olunub, 12-ci maddədə isə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi müəyyənləşdirilib. Konstitusiya heç bir vətəndaşa milli, dini, irqi, sosial və digər mənsubiyyətinə görə üstünlük vermir. Eyni zamanda qanun qarşısında hər kəsin məsuliyyəti və öhdəlikləri də ümumi hüquqi çərçivəyə əsaslanır. Bu baxımdan azərbaycançılıq ideologiyası Konstitusiyanın müəyyən etdiyi hüquqi dəyərlərlə üzvi şəkildə uzlaşır. Burada əsas məsələ yalnız bərabər hüquqların bəyan edilməsi deyil, onların gündəlik ictimai münasibətlərdə real təmin olunmasıdır. Qanunun aliliyinə hörmət, vətəndaş məsuliyyəti və qarşılıqlı hüquqi etimad milli birliyin möhkəmlənməsinə xidmət edir. Beləliklə, azərbaycançılıq hər bir fərdin dövlət qarşısında bərabər mövqeyini və ümumi məsuliyyətini müəyyən edən mühüm ideoloji dayaqlardan biridir.

Gənc nəsil azərbaycançılıq ideologiyasının daşıyıcısı və gələcək uğurların təminatıdır

Milli ideologiyanın davamlılığı onun gələcək nəsillər tərəfindən mənimsənilməsi və ictimai həyatın ayrılmaz hissəsinə çevrilməsi ilə ölçülür. Bu baxımdan gənclərin azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsi dövlətimizin strateji hədəflərindən biri kimi xüsusi əhəmiyyət daşıyır. Çünki müasir dünyada qloballaşma, informasiya axınlarının sürətlənməsi və müxtəlif ideoloji təsirlərin güclənməsi milli kimliyin qorunmasını daha aktual edir. Gənc nəsil həm müasir biliklərə yiyələnməli, həm də tarixini, milli-mənəvi dəyərlərini, dövlətçilik ənənələrini dərindən bilməlidir. Azərbaycançılıq bu iki istiqaməti bir araya gətirən, gənclərə həm milli kimlik, həm də gələcəyə inam aşılayan ideoloji platformadır.

2020-ci ildə baş vermiş Vətən müharibəsi bu məfkurənin cəmiyyətimizdə nə qədər güclü dayaqlara malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Müharibə dövründə siyasi baxışlardan və sosial fərqlərdən asılı olmayaraq xalqımızın vahid məqsəd ətrafında səfərbər olması, ön və arxa cəbhənin həmrəyliyi, gənclərin torpaq və dövlət uğrunda mübarizəyə qoşulması milli birliyin real təzahürü idi. Bu qələbə yalnız hərbi qüdrətin deyil, eyni zamanda milli ruhun, vətənpərvərliyin və ümumxalq həmrəyliyinin nəticəsi oldu. Həmin tarixi təcrübə göstərdi ki, azərbaycançılıq ideologiyası yalnız keçmişin irsini qorumaqla məhdudlaşmır, həm də gələcəyin qurulmasına istiqamət verir. Bu gün gənclərin elm, təhsil, texnologiya, iqtisadiyyat və dövlət idarəçiliyi sahələrində fəallığı həmin ideoloji bağlılığın yeni ifadəsidir. Milli kimliyinə sahib çıxan, dövlətinin maraqlarını üstün tutan və müasir çağırışlara hazır olan gənclik Azərbaycanın gələcək uğurlarının başlıca təminatıdır.

P.İSMAYILOV

YAP Sədrinin müavini ICAPP Daimi Komitəsinin 46-cı iclasında iştirak edib







Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (ICAPP) Daimi Komitəsinin (DK) üzvü Tahir Budaqov noyabrın 4-də Koreya Respublikasının Seul şəhərində "Mincu" (Demokratik) Partiyası və Xalqın Gücü Partiyasının birgə ev sahibliyi ilə keçirilən ICAPP-ın 13-cü Baş Assambleyası çərçivəsində ICAPP DK-nın 46-cı iclasında iştirak edib.

İclasda açılış nitqi ilə çıxış edən ICAPP Daimi Komitəsinin sədri Çunq Eu-yonq gündəlikdə duran məsələlər barədə məlumat verib, ICAPP-ın cari fəaliyyətinə nəzər salıb, DK-nın yeni üzvlərini təqdim edib, təşkilatın gələcək iş planını diqqətə çatdırıb. O, həmçinin ICAPP-ın fəaliyyətinin daha da təkmilləşdirilməsinin, institusional imkanlarının gücləndirilməsinin və beynəlxalq əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb, bu istiqamətdə siyasi partiyalar arasında qarşılıqlı təcrübə mübadiləsinin təşviqinin, dialoq və əməkdaşlıq platformalarının inkişaf etdirilməsinin, eləcə də qlobal çağırışların həllində birgə səylərin artırılmasının vacibliyini qeyd edib.

Daha sonra 36 ölkəni təmsil edən 83 siyasi partiyanın iştirakı ilə baş tutan ICAPP-ın 13-cü Baş Assambleyasına hazırlıq işləri barədə məlumat verilib, büro üzvlüyünə sədr müavini kimi YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov da daxil olmaqla 5 ölkədən (Azərbaycan, Banqladeş, Çin, Malayziya, Vyetnam) namizəd irəli sürülüb.

DK iclasında Baş Assambleyanın bağlanış sessiyasında qəbul ediləcək Seul Bəyanatının layihəsi və ICAPP Nizamnaməsinə təklif olunan dəyişikliklər ətrafında da fikir mübadiləsi aparılıb. Həmçinin siyasi partiyalar arasında dialoqun inkişaf etdirilməsi, dayanıqlı sülh və sabitliyin təşviqi, demokratik idarəetmənin gücləndirilməsi, süni intellektin imkanlarından ümumi rifah naminə istifadə və iqlim dəyişikliyi ilə mübarizə kimi aktual məsələlər müzakirə olunub.

Zəfər ayının 6-cı günü

6 noyabr 2020-ci il

• Ordumuz Ağdam və Ağdərə istiqamətlərində düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti də daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAZ" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib. Ermənistan ordusunun bölmələri cəbhənin Qubadlı istiqamətində mövqeləri ataraq qaçıb.

• Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Cəbhənin bəzi yerlərində şəxsi heyətini və hərbi texnikasını itirən düşmən geri çəkilməyə məcbur olub.

• Düşmənin minaatanlarının atış nöqtələrinə və döyüş mövqelərinə zərbələr endirilib.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Ermənistan ordusunun təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 6-dək 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb, 3 min 64 ev, 100 yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• FHN-in yanğınsöndürmə qüvvələri işğaldan azad edilmiş ərazidə ilk yanğınsöndürmə əməliyyatı həyata keçirib.



Azərbaycanın formalaşdırdığı reallıqlar...

Geniş geosiyasi maraqlarla uzlaşır

Aralıq seçkilərin nəticələrinin Vaşinqtonun Cənubi Qafqaza yanaşmasına ciddi təsir göstərəcəyi gözlənilmir

Donald Trampın 2024-cü ilin noyabrında yenidən ABŞ prezidenti seçilməsi beynəlxalq münasibətlər sistemində yeni siyasi mərhələnin başlanğıcını qoydu. Vaşinqtonun xarici siyasət prioritetlərində baş verən dəyişikliklər, əvvəlki administrasiyanın ayrı-ayrı geosiyasi proseslərə yanaşmasından fərqli olaraq, bir sıra regional münaqişələrin həlli və yeni əməkdaşlıq platformalarının formalaşdırılması məsələsini gündəmə gətirdi. Xüsusilə Bayden administrasiyası dövründə Cənubi Qafqazda sülh gündəliyinə münasibət, iqtisadi inteqrasiya imkanlarının qiymətləndirilməsi və regional təhlükəsizlik arxitekturasının formalaşması ətrafında yaranan fikir ayrılıqları proseslərin inkişafına təsirsiz ötüşməmişdi. Trampın hakimiyyətə qayıdışından sonra isə diplomatik fəallığın artması, münaqişələrin siyasi dialoq vasitəsilə nizamlanmasına diqqətin yönəlməsi yeni perspektivlər açdı. Bu kontekstdə 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması Cənubi Qafqazın gələcək inkişafı baxımından mühüm siyasi hadisəyə çevrildi. Bununla da regionda qarşıdurma müstəvisindən əməkdaşlıq müstəvisinə keçid üçün yeni imkanlar yarandı.

Lakin ABŞ-da siyasi proseslərin növbəti mərhələsi, xüsusilə 2026-cı ilin aralıq seçkiləri və Demokratların Konqresin hər iki palatasında mümkün üstünlüyü qlobal gündəliyə yeni suallar gətirir. Respublikaçı administrasiyanın xarici siyasət kursu ilə Konqresdə formalaşa biləcək fərqli siyasi çoxluğun münasibətləri hansı istiqamətdə inkişaf edəcək? Bu dəyişikliklər Vaşinqtonun beynəlxalq tərəfdaşlıqlarına, iqtisadi prioritetlərinə və regional münaqişələrə yanaşmasına necə təsir göstərəcək? Ən əsası, yeni siyasi konfiqurasiya Cənubi Qafqazda sülh prosesi, Zəngəzur dəhlizi və regional inteqrasiya perspektivləri üçün hansı nəticələr vəd edir? Bütün bunlar Azərbaycanın milli maraqları baxımından diqqətlə izlənilməli olan məsələlərdir.

Hazırkı siyasət davam edəcək

Yeri gəlmişkən, ABŞ-ın nüfuzlu siyasətçiləri də bu fikri bölüşürlər ki, aralıq seçkilərin nəticələri Vaşinqtonun Cənubi Qafqaz siyasətinə güclü təsir etməyəcək. Belə ki, Ceymstaun Fondunun Direktorlar Şurasının üzvü, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, beynəlxalq ekspert Metyu Brayza bildirib ki, ABŞ-da keçirilən aralıq seçkilərin nəticələrinin Prezident Donald Trampın xarici siyasətinə, o cümlədən Vaşinqtonun Cənubi Qafqaza yanaşmasına ciddi təsir göstərəcəyi gözlənilmir. Demokratlar Partiyası Konqresin hər iki palatasına nəzarəti ələ keçirsə belə, bu, ABŞ-ın regiona münasibətində dəyişikliklərə səbəb olmayacaq. O qeyd edib ki, ABŞ Konstitusiyasına əsasən, ölkənin xarici siyasətinin formalaşdırılması və həyata keçirilməsi məsuliyyəti Prezidentin üzərinə düşür. Konqres isə xarici siyasət kursunun reallaşdırılması üçün dövlət başçısına ayrılan maliyyənin həcmini müəyyənləşdirməklə, eləcə də müvafiq xərcləri məhdudlaşdırmaqla bu prosesə təsir göstərə bilər.



"Demokratlar Konqresin hər iki palatasına - Nümayəndələr Palatasına və Senata nəzarəti ələ keçirsələr belə, bu, Cənubi Qafqazdakı vəziyyətə təsir göstərməyəcək", - deyə ekspert qeyd edib. Metyu Brayzanın fikrincə, Prezident Donald Tramp Azərbaycan və Ermənistan arasında sülh prosesinə dəstək verməyə, həmçinin Cənubi Qafqaz və Mərkəzi Asiyaya Amerika investisiyalarının cəlb edilməsinə yönəlmiş hazırkı siyasətini davam etdirəcək.

Ekspert bildirib ki, söhbət kritik əhəmiyyətli minerallarının tədarükünün təmin edilməsindən, eləcə də onların Cənubi Qafqaz vasitəsilə ABŞ-a və digər dünya bazarlarına daşınması üçün etibarlı logistika marşrutlarının yaradılmasından gedir.

Vaşinqtonun sülh prosesinə yanaşması beynəlxalq aləmdə dəstəklənir

İlk olaraq, ABŞ-ın Cənubi Qafqazdakı sülh gündəliyinə yeni yanaşması barədə məsələyə toxunaq. Vurğulanmalıdır ki, Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması və nəticə etibarı ilə Tramp administrasiyasının fəal siyasi-diplomatik iştirakı ilə əldə olunan nəticələr beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanıb. Hətta bir zamanlar bu sülh prosesinə skeptik yanaşma sərgiləyənlər belə öz mövqeylərini yeni gündəmlə uzlaşdırıblar. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, Vaşinqtonun ən yaxın müttəfiqlərindən olan və vaxtilə bölgədə sülhdən çox birtərəfli mövqeyə sahib olan Avropa İttifaqının bəzi strukturları da regionda sülh gündəliyinin irəliləməsini dəstəkləyir. Almaniya, Niderland, Böyük Britaniya və digər aparıcı Avropa dövlətləri əldə olunan irəliləyişi Cənubi Qafqazın gələcəyi, eləcə də Şərq-Qərb münasibətlərinin yeni məzmun qazanması baxımından mühüm hadisə kimi qiymətləndirirlər. Bu yanaşma onu göstərir ki, Azərbaycan-Ermənistan münasibətlərində yaranan yeni siyasi reallıq artıq ikitərəfli çərçivəni aşaraq daha geniş geosiyasi maraqlarla uzlaşır.

Digər tərəfdən, Vaşinqtonun iştirakı ilə formalaşan sülh modeli yalnız Cənubi Qafqaz üçün deyil, ABŞ-ın digər münaqişə ocaqlarında həyata keçirməyə çalışdığı diplomatik təşəbbüslər baxımından da müəyyən təcrübə yaradır. Çünki Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü təmin etdikdən sonra regionda müharibə gündəliyinin sülh və əməkdaşlıq gündəliyi ilə əvəzlənməsi üçün siyasi iradə nümayiş etdirib. Ermənistanın da yeni reallıqları qəbul etməsi, regional kommunikasiyaların açılmasının və iqtisadi inteqrasiyanın yaratdığı imkanları dərk etməsi bu prosesin əhəmiyyətini artırır. İşğalın başa çatması Ermənistan üçün də inkişaf və qlobal iqtisadi sistemə daha geniş inteqrasiya perspektivləri açıb. Beləliklə, sülh artıq tərəflərdən biri üçün güzəşt deyil, hər iki dövlətin gələcək inkişafına xidmət edən strateji seçim kimi çıxış edir.

Bu baxımdan, ABŞ-ın regionda formalaşan yeni siyasi reallıqlara münasibətinin dəyişəcəyini gözləmək üçün ciddi əsas yoxdur. Əksinə, Vaşinqtonun əldə olunmuş nəticələri qorumaq, tərəflər arasında etimadı möhkəmləndirmək və iqtisadi əməkdaşlığı genişləndirmək istiqamətində praqmatik mövqeyini davam etdirməsi daha real görünür.

Zəngəzur dəhlizi (TRIPP) sabitləşdirici faktor kimi...

Digər əsas məqam bütün dünyanın marağına səbəb olan və Bakının təşəbbüsü ilə ortaya çıxan Zəngəzur dəhlizi (TRIPP) layihəsidir. Sirr deyil ki, müasir dövrün əsas prioriteti ticarət yolları üzərində əməkdaşlığın möhkəmlənməsidir. Son dövrlərdə baş verən hadisələrin xronoloji ardıcıllığına nəzər saldıqda qarşıdurmaların bir neçə strateji ticarət xətti ətrafında cəmləşdiyini görmək mümkündür:

- Qırmızı dənizdə, Bab Əl Məndəb boğazında və Süveyş kanalı üzərində yaranan gərginliklər:

- Mərkəzi Avropa - Arktika istiqamətində formalaşan Şimal ticarət marşrutu ətrafındakı müharibə;

- Yaxın Şərq və Hind okeanı istiqamətindəki Cənub ticarət xəttinin təhlükə parametrlərinin yüksəkliyi.

Məhz belə bir şəraitdə yeni və daha təhlükəsiz logistika marşrutu olaraq Zəngəzur dəhlizi (TRIPP) diqqət mərkəzinə düşür. Avrasiyanın mərkəzində yerləşən və Şərqlə Qərbin təbii qovşağı sayılan Azərbaycan yeni iqtisadi düzənin formalaşmasında xüsusi rol oynamağa başlayıb. Azərbaycanın coğrafi mövqeyi, inkişaf etmiş nəqliyyat infrastrukturu və siyasi sabitliyi onu qlobal logistika sistemində vacib halqaya çevirir. Hazırkı konfrantasiyaların fonunda Zəngəzur dəhlizi bütövlükdə Avrasiya məkanında ticarət xəritəsini dəyişdirə biləcək strateji təşəbbüsdür. Əlverişli və qısa ticarət marşrutlarının axtarıldığı bir dövrdə bu dəhliz Şərqlə Qərb arasında ən rasional alternativlərdən biri kimi ön plana çıxır. Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzrə yaratdığı müasir logistika infrastrukturu da bu təşəbbüsün reallaşması üçün möhkəm baza formalaşdırır. Bu yol Mərkəzi Asiyadan keçən və Çin iqtisadi məkanını Qərb bazarları ilə birləşdirən ticarət xətti kimi ön plana çıxır - marşrut Çin - Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya - Avropa istiqamətində formalaşan geniş logistika sisteminin əsas komponentlərindən biridir. Azərbaycan isə bu sistemin əsas koordinasiya mərkəzidir - Bakı həm siyasi təşəbbüsləri, həm də həyata keçirdiyi iri infrastruktur layihələri vasitəsilə regionun tranzit potensialını reallaşdırmağa nail olub. Zəngəzur dəhlizi isə bu logistika sisteminin tamamlayıcı elementi kimi xüsusi əhəmiyyət daşıyır. Bu dəhliz Cənubi Qafqazın uzunmüddətli sülh və əməkdaşlıq platformasına çevrilməsi üçün real mexanizmdir. Azərbaycanın bölgədə yaratdığı təhlükəsizlik mühiti və həyata keçirdiyi sabitlik siyasəti regionun logistika layihələri üçün etibarlı platformaya çevrilməsinə imkan verir. Zəngəzur dəhlizinin də ən böyük üstünlüklərindən biri regional gərginlikləri azaltmaq potensialıdır. İqtisadi əməkdaşlıq və qarşılıqlı maraqların güclənməsi siyasi qarşıdurmaların zəifləməsinə gətirib çıxarır. Tarix də göstərir ki, iqtisadi inteqrasiya münaqişələrin qarşısını alan ən effektiv mexanizmlərdən biridir. Digər tərəfdən, bu dəhliz Qərb və Çin arasında mövcud olan Şimal-Cənub ticarət marşrutları ilə inteqrasiya imkanlarını da genişləndirə bilər. Bu isə Avrasiyada daha çevik və çoxşaxəli logistika şəbəkəsinin formalaşmasına şərait yaradar. Beləliklə, Azərbaycanın müəllifi olduğu reallıqlar gərginlikləorə tabe olmur - əksinə, sabitləşdirici faktora çevrilir.

Trampın prezident səlahiyyətləri ABŞ-ın xarici siyasətində davamlılıq amili kimi

Cənubi Qafqazla yanaşı, ümumilikdə ABŞ-ın xarici siyasət kursunun yaxın perspektivdə dəyişməsi üçün ciddi siyasi və institusional əsaslar görünmür. Donald Tramp prezident kimi Konstitusiyanın ona verdiyi geniş səlahiyyətlərdən istifadə etmək imkanını qoruyur. Bu səlahiyyətlər sırasında Konqresin qəbul etdiyi qanunlara veto qoymaq hüququ da xüsusi yer tutur. Prezidentin vetosu Konqresin siyasi qərarlarının icrasına təsir göstərmək, qanunvericilik təşəbbüslərinin istiqamətini dəyişmək və administrasiyanın prioritetlərini müdafiə etmək üçün mühüm vasitədir.

Bu baxımdan, hətta Konqresdə siyasi qüvvələr nisbətinin dəyişməsi belə Ağ Ev administrasiyasının xarici siyasət strategiyasına avtomatik şəkildə yenidən baxılacağı anlamına gəlmir. Çünki ABŞ prezidentinin diplomatiya, beynəlxalq danışıqlar və icra hakimiyyətinin fəaliyyəti üzərində mühüm təsir imkanları mövcuddur. Təbii ki, Konqresin qanunvericilik, maliyyələşdirmə və nəzarət mexanizmləri də xarici siyasətə müəyyən təsir göstərə bilər. Amma bu təsir güclü effekt verməyəcək. Bu reallıqlar fonunda yaxın perspektivdə Vaşinqtonun əsas xarici siyasət prioritetlərində kəskin dönüşdən daha çox, mövcud strateji xəttin davam etdirilməsi və onun yeni geosiyasi şərtlərə uyğunlaşdırılması ehtimalı ön plana çıxır.

P. SADAYOĞLU

Cənubi Qafqaz üçün yeni perspektivlər

Ermənistan Azərbaycanın formalaşdırdığı sülh gündəliyi ilə razılaşır

Vətən müharibəsində əldə etdiyimiz Qələbədən sonra Azərbaycanın atdığı addımlar, bölgədə yaratdığı yeni siyasi reallıqlar sülhün demək olar ki, bütün ştrixlərini müəyyənləşdirib. Bakı müəllifi olduğu sülh layihəsinin imkanlarını bütün dünyaya təqdim edib və bütün dünya bu reallıqları artıq qəbul edir - hər kəs dərk edir ki, yeni iqtisadi nizamın astanasında Azərbaycan Cənubi Qafqazda qlobal münasibətlər sisteminin mühüm bir mərhələsini yaradır: mühüm bir geostrateji məkanda təhlükəsizliyin təmini üçün bütün standartları müəyyənləşdirib, yeni yol xəritəsi formalaşdırıb. Beynəlxalq aləm bütövlükdə ölkəmizin bu addımını təqdir edir, Zəngəzur dəhlizinin (TRIPP) açılmasını və sülh ilə bağlı son mərhələyə qədəm qoyulmasını dəstəkləyir. Bir sözlə, Bakının təşəbbüsü ilə meydana gələn sülh layihəsi yeni dövrdə zərurətə çevrilib - bunu Ermənistan cəmiyyəti və siyasi hakimiyyəti də dərk edir. Təsadüfi deyil ki, Ermənistanın baş naziri Nikol Paşinyan Brüsseldə "Euronews" telekanalı tərəfindən təşkil olunmuş "Avropanın gələcəyi" sammitində çıxışı zamanı bu faktı bir daha təsdiqləyib.

Ermənistanın baş naziri: İrəvan və Bakı arasında sülh...

Paşinyan bildirib ki, Ermənistan və Azərbaycan arasında sülh, eləcə də regional əməkdaşlığın inkişafı Cənubi Qafqaz üçün, xüsusilə logistika və beynəlxalq daşımalar sahəsində yeni imkanlar yaradır. O vurğulayıb ki, İrəvan və Bakı arasında münaqişənin sülh yolu ilə həllinə dair Vaşinqton razılaşmaları artıq real məzmun kəsb edib. Bununla belə, indi əsas məsələ həmin razılaşmaların institusional əsaslarını formalaşdırmaqdır. O, iki ölkənin xarici işlər nazirləri tərəfindən 2025-ci il avqustun 8-də Vaşinqtonda paraflanmış sülh müqaviləsinin imzalanmasının və ratifikasiyasının vacibliyini qeyd edib.

Regional əməkdaşlıqdan danışan baş nazir bildirib ki, o, Cənubi Qafqazı fərqliliklərə baxmayaraq, inkişaf üçün birgə yanaşma və strategiya formalaşdırmağa imkan verən ümumi maraqların mövcud olduğu vahid bir region kimi nəzərdən keçirir.

"Gürcüstanla artıq çox yaxşı əməkdaşlığımız qurulub. Ənənəvi olaraq, münasibətlərimiz sıx və dostluq xarakteri daşıyır. Hazırda biz ikitərəfli ticarət əlaqələrimiz olan Azərbaycanla da münasibətlər qururuq. İndi isə regional infrastruktur əlaqələrinin inkişafı üçün yeni imkanlar açacaq TRIPP layihəsini həyata keçirmək niyyətindəyik", - Paşinyan qeyd edib.

Onun sözlərinə görə, İrəvan və Bakı arasında sülh, TRIPP layihəsinin həyata keçirilməsi və Gürcüstan, Ermənistan və Azərbaycanın xüsusilə logistika sahəsindəki əməkdaşlığı qlobal tədarük zəncirləri böhranının aradan qaldırılması üçün imkanlar yaradır. "Bütün bu proses Cənubi Qafqaza beynəlxalq arenada tamamilə yeni bir mövqe tutmağa imkan verəcək", - o bildirib.

Paşinyan Mərkəzi Asiyanın regiona yaxınlığına və bütövlükdə bölgənin qlobal əhəmiyyətinin artmasına da diqqət çəkib. Onun sözlərinə görə, yeni beynəlxalq ticarət marşrutunun formalaşması Avropa İttifaqı, Çin, Yaxın Şərq, Şimali Afrika və digər regionlar üçün əhəmiyyət kəsb edəcək.

Paşinyandan etiraf...



Paşinyanın bu etirafı Ermənistanın da Azərbaycanın bölgə üçün formalaşdırdığı yeni gələcəkdə iştirak etmək istəyinin təzahürüdür. Həqiqətən də 2020-ci ildən sonra Bakının diqtəsi ilə formalaşmağa başlayan yeni regional münasibətlər sistemi Cənubi Qafqaz üçün tamamilə fərqli perspektivlər açır. Uzun illər ərzində bölgənin inkişafına mane olan münaqişə faktoru aradan qalxdıqca, iqtisadi inteqrasiya və qarşılıqlı əməkdaşlıq imkanları ön plana çıxır. Azərbaycanın post-müharibə dövründə nümayiş etdirdiyi konstruktiv yanaşma, revanşizmə deyil, sülhə və əməkdaşlığa üstünlük verməsi regionda yeni siyasi atmosfer yaradıb. Bu yanaşma həm region dövlətlərinin, həm də beynəlxalq tərəfdaşların maraqlarına cavab verir.

Yeni münasibətlər sisteminin əsas xüsusiyyətlərindən biri iqtisadi əməkdaşlığın siyasi münasibətlərə müsbət təsir göstərməsidir. Müasir dünyada davamlı inkişafın əsas şərtlərindən biri regional inteqrasiyadır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri region ölkələrinin iqtisadi potensialını artırmaqla yanaşı, onları qlobal iqtisadi sistemin mühüm iştirakçılarına çevirir. Bu layihələr vasitəsilə Avropa, Asiya və Yaxın Şərq arasında yeni ticarət marşrutları formalaşır ki, bu da Cənubi Qafqazın geoiqtisadi əhəmiyyətini əhəmiyyətli dərəcədə yüksəldir.

Ermənistanın əldə edəcəyi imkanlar...

Paşinyanın qeyd etdiyi kimi, Azərbaycanın təşəbbüsü ilə meydana çıxan Zəngəzur dəhlizi (TRIPP) bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Layihənin reallaşması Azərbaycanı Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa birləşdirməklə yanaşı, regionda yeni iqtisadi imkanlar yaradacaq. Eyni zamanda, Ermənistan da bu prosesdən faydalanmaq imkanı əldə edəcək. Uzun illər regional layihələrdən kənarda qalan Ermənistan yeni kommunikasiya xətlərinə qoşulmaqla iqtisadi canlanma əldə edə, yeni bazarlara çıxış imkanlarını genişləndirə bilər. Sülh şəraitində Ermənistan Mərkəzi Asiya ölkələri ilə daha geniş ticarət əlaqələri qurmaq, Türkiyə üzərindən Avropaya çıxış əldə etmək və regional layihələrdə iştirak etmək imkanı qazanacaq. Beləliklə, yeni münasibətlər sistemi qalib və məğlub anlayışlarından daha çox, qarşılıqlı fayda və ortaq maraqlar prinsipi üzərində qurulur.

Digər tərəfdən, yeni regional nizam beynəlxalq investorların diqqətini də bölgəyə cəlb edir. Sabitlik və təhlükəsizlik mühiti gücləndikcə xarici investisiyalar üçün daha əlverişli şərait formalaşır. Bu isə yeni iş yerlərinin açılması, infrastrukturun inkişafı və ümumi rifah səviyyəsinin yüksəlməsi deməkdir. Nəticə etibarilə, Azərbaycanın təşəbbüsü ilə formalaşan yeni münasibətlər sistemi regionu münaqişə məkanından əməkdaşlıq məkanına çevirmək potensialına malikdir.

Konstitusiya dəyişikliyi prosesi sürətlənməlidir

Paşinyanın bu etirafları nəhayət ki, Ermənistanın reallıqları tam dərk etdiyinin də göstəricisi sayıla bilər. O baxımdan ki, erməni baş nazir bütün dediklərinin reallaşması üçün siyasi iradə nümayiş etdirməli və Ermənistan Konstitusiyasının dəyişdirilməsi ilə bağlı prosesi sürətləndirməlidir. Bəlli olduğu kimi, sülhün əldə olunmasına mane olan əsas amil Ermənistanın Konstitusiyasında mövcud olan ərazi iddialarıdır. Azərbaycanla uzunmüddətli və davamlı sülh yalnız hüquqi ziddiyyətlər aradan qaldırıldıqdan sonra mümkündür. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı dolayısı və ya birbaşa iddiaların qalması sülh sazişinin ruhuna ziddir.

Bu məsələ təkcə Bakının tələbi deyil, beynəlxalq hüququn fundamental prinsiplərindən irəli gəlir. Dövlətlərin ərazi bütövlüyünün tanınması və qarşılıqlı suverenliyə hörmət sülhün əsas şərtidir. Tarix göstərir ki, iqtisadi əməkdaşlıq və qarşılıqlı əlaqələr regional sabitliyin qorunmasının ən effektiv vasitələrindən biridir. Konstitusiya dəyişikliyinin ardından sülhün imzalanması, dövlətlər arasında iqtisadi əlaqələrin formalaşması qarşıdurma ehtimallarını da bir o qədər azaldır. Bu baxımdan Cənubi Qafqazda əməkdaşlıq imkanlarının genişlənməsi bölgənin təhlükəsizlik mühitinə mühüm töhfə verə bilər. Müharibədən sonrakı dövrdə yaranan yeni geosiyasi vəziyyət region dövlətlərini əməkdaşlığa sövq edən əsas amillərdən biri kimi çıxış edir.

P.İSMAYILOV

"Milli ideologiya, dövlətçilik şüurunun təşviqində ailənin rolu"

Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və YAP Sumqayıt şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Milli ideologiya, dövlətçilik şüurunun təşviqində ailənin rolu" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları YAP Sumqayıt şəhər təşkilatının inzibati binasında Ümummilli Lider Heydər Əliyevin büstünü ziyarət edərək önünə gül dəstələri düzüblər.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş nitqi ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov milli ideologiyanın dövlətçilik ənənələrinin qorunması, milli birliyin möhkəmləndirilməsi və cəmiyyətin mənəvi bütövlüyünün təmin olunmasındakı rolundan danışıb. O, Prezident İlham Əliyevin YAP-ın VIII Qurultayında qarşıya qoyduğu vəzifələrə toxunaraq ideoloji təhlükəsizliyin təmin edilməsi, milli maraqların qorunması və dövlətçilik dəyərlərinin təbliğində partiya üzvlərinin fəallığının vacibliyini vurğulayıb.







YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva mövzunun ideoloji və ictimai əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, ailə milli kimliyin, dövlətçilik şüurunun və mənəvi dəyərlərin formalaşdığı əsas mühitdir. Milli məfkurənin inkişafı, cəmiyyətdə həmrəyliyin möhkəmləndirilməsi və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin ölkənin müasir ideoloji xəttinin mühüm istiqamətləri olduğu qeyd edilib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova ailə institutunun möhkəmləndirilməsinin cəmiyyətin sosial dayanıqlılığı baxımından əhəmiyyətindən bəhs edib. O, Prezident İlham Əliyevin YAP-ın VIII Qurultayında diqqətə çatdırdığı milli-mənəvi dəyərlərin qorunması və ideoloji təhlükəsizliyin gücləndirilməsi məsələlərinə toxunaraq, bu prinsiplərin gənc nəslin milli ruhda yetişdirilməsində mühüm əhəmiyyət daşıdığını bildirib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elnarə Akimova azərbaycançılıq ideologiyasının müstəqil dövlətimizin əsas ideoloji dayaqlarından birinə çevrildiyini deyib. O, milli ədəbiyyatın, klassik irsin, xalq yaradıcılığının və tarixi yaddaşın gənc nəslin dünyagörüşünün formalaşmasına təsirini diqqətə çatdırıb. Bildirib ki, xalqın keçmişini, mədəniyyətini və ədəbi irsini dərindən tanımaq milli özünüdərkin gücləndirilməsinə, mənəvi varisliyin qorunmasına və milli kimliyin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Milli Məclisin deputatı Mehriban Vəliyeva isə ailənin şəxsiyyətin formalaşmasında və uşaqlara ilkin mənəvi dəyərlərin aşılanmasında rolundan bəhs edib. O, valideynlərin üzərinə düşən tərbiyə məsuliyyətini, gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsini və cəmiyyətdə sağlam mənəvi mühitin qorunmasını vacib amillər kimi qeyd edib. Vurğulanıb ki, uşaqların şəxsiyyət kimi formalaşmasında ailədə verilən tərbiyə ilə təhsil mühitində qazanılan bilik və bacarıqlar bir-birini tamamlamalıdır.

İnteraktiv formada davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Tikinti və şəhərsalma üçün faydalı platforma

“AIREX 2026” sərgisi daşınmaz əmlak bazarında yeni əməkdaşlıq imkanları yaradacaq

Bakıda Azərbaycanın ilk ixtisaslaşmış beynəlxalq daşınmaz əmlak və investisiya sərgisi “AIREX 2026” işə başlayıb. Sərgidə Avropa və Asiya ölkələrini təmsil edən 70-dən çox yerli və beynəlxalq şirkət iştirak edir. Tədbir “PAŞA Property Management” və “Baku Expo Management”in təşkilatçılığı, Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri, Qarabağ Dirçəliş Fondu, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, AZPROMO və Azərbaycan Daşınmaz Əmlak Rieltorlar Assosiasiyasının dəstəyi ilə keçirilir.

“AIREX 2026” beynəlxalq daşınmaz əmlak və tikinti sərgisi Azərbaycanın tikinti, şəhərsalma, qiymətləndirmə və daşınmaz əmlak sektorlarının beynəlxalq əməkdaşlığının genişləndirilməsi baxımından mühüm platforma rolunu oynayır. Yerli və xarici yaşayış, kommersiya layihələrinin təqdimatı, sahə mütəxəssisləri və beynəlxalq nümayəndələrin iştirakı ilə investorlar və sahibkarlar üçün birbaşa görüşlərin keçirilməsi sərginin əhəmiyyətini əks etdirir.

“Şəhərsalma və Memarlıq İli”nə töhfə


“Şəhərsalma və Memarlıq İli”nə təsadüf edən belə bir beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycanın əmlak bazarı və tikinti sektoru, infrastruktur və innovasiya sahəsi üzrə iştirakçılar üçün mühüm əhəmiyyət daşıyır. Tədbir müasir şəhərsalma həllərinin, dayanıqlı tikinti prinsiplərinin və rəqəmsal texnologiyaların müzakirəsi Azərbaycanın urbanizasiya proseslərinin, infrastruktur inkişafının və daşınmaz əmlak bazarının beynəlxalq təcrübə ilə uzlaşdırılması üçün əlavə imkanlar yaradır. Xarici investorların yerli bazara marağının artması əmlak haqqında etibarlı məlumatlara, şəffaf qiymətləndirmə mexanizmlərinə və beynəlxalq standartlara uyğun peşəkar xidmətlərə tələbatı da artırır. Bir sözlə, tədbir tikinti sektoruna aid ən qabaqcıl texnologiyalar, yeni inşaat modelləri üzrə təcrübələrin bölüşülməsi, təchizatçılar və tikinti peşəkarlarının yeni işgüzar əlaqələrinin qurulması, potensial tərəfdaşlıq şəbəkəsinin genişləndirilməsi baxımından əlverişli fürsət və imkanlar deməkdir.

Sərgi çərçivəsində təşkil olunan beş panel iclasda Azərbaycanın şəhərsalma perspektivləri, yeni yaşayış və infrastruktur layihələri, brend rezidensiyalar, premium yaşayış konsepsiyaları, şəhər və məhəllələrin planlaşdırılması, dayanıqlı tikinti və müasir texnologiyaların tətbiqi məsələləri diqqət mərkəzində olub. Bu isə ölkəmizin tikinti biznesi təmsilçiləri ilə xarici investorlar arasında potensial tərəfdaşlığın qurulması baxımından mühüm fürsət deməkdir.

Əmlak bazarına investorların marağı artа bilər

Tədbirin təşkilatçılarından biri olan “PAŞA Property Management” şirkətinin baş icraçı direktoru Tural Əliyev bildirib ki, “AIREX 2026” daşınmaz əmlak bazarının müxtəlif iştirakçılarını vahid platformada birləşdirmək və sektorun inkişafına töhfə vermək baxımından mühüm təşəbbüsdür. Sərgi həm mənzil almaq və yaşayış şəraitini yaxşılaşdırmaq istəyən şəxslər, həm də daşınmaz əmlaka investisiya yatırmağı planlaşdıran investorlar və sektorun peşəkar iştirakçıları üçün nəzərdə tutulub. İştirakçı tərəflər yerli layihələrlə yanaşı, xarici daşınmaz əmlak bazarları ilə maraqlanan ziyarətçilər də beynəlxalq şirkətlərin nümayəndələri ilə birbaşa görüşmək imkanı əldə edəcəklər. Bu isə yerli və beynəlxalq daşınmaz əmlak layihələrinin konsepsiyası, infrastrukturu və inkişaf perspektivləri ilə yaxından tanış olmaq imkanı yaradacaq. Eyni zamanda, yeni işgüzar əlaqələrin qurulmasına, investisiya imkanlarının qiymətləndirilməsinə və daşınmaz əmlak sektorunda əməkdaşlığın genişləndirilməsinə imkan verəcək.







Qarabağ və Şərqi Zəngəzurda investisiya qərarları üçün yeni imkanlar

Sərginin mühüm istiqamətlərindən biri də işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərinin qlobal təqdimatıdır. Azərbaycanın qazandığı tarixi Zəfərdən sonra tikinti sənayesinin yeni landşaftı formalaşıb - Qarabağ və Şərqi Zəngəzurda irimiqyaslı inşaat layihələrinin icrası, şəhərsalma və yol-nəqliyyat infrastrukturunun yaradılması genişmiqyaslı tikinti proqramlarını ərsəyə gətirməkdədir. Hazırda “Böyük Qayıdış” proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə uğurla aparılan genişmiqyaslı bərpa və quruculuq işləri regionun simasını köklü şəkildə dəyişir. Müasir şəhərsalma konsepsiyalarına uyğun şəhərlər salınır, yeni məktəblər, xəstəxanalar, yol-nəqliyyat və kommunikasiya infrastrukturu inşa olunur, iş yerləri açılır, yaşıl enerji zonaları və sənaye parkları yaradılır. Qarabağ artıq yalnız milli qürurumuzun rəmzi deyil, həm də XXI əsrin dayanıqlı inkişaf məkanı kimi formalaşır.

Bölgədə həyata keçirilən infrastruktur layihələri, yeni yaşayış məntəqələrinin salınması və şəhərsalma planlarının icrası tikinti, daşınmaz əmlak, xidmət və digər əlaqəli sahələr üçün yeni iqtisadi imkanlar formalaşdırır. Bu, ərazilərdə investisiya imkanlarının reallaşdırılması üçün yalnız infrastrukturun yaradılması deyil, mülkiyyətin hüquqi statusunun, iqtisadi dəyərinin və investisiya risklərinin düzgün müəyyənləşdirilməsi baxımından vacibdir. Bu kontekstdə peşəkar qiymətləndirmə investisiya qərarlarının daha etibarlı məlumatlar əsasında qəbul edilməsinə və layihələrin iqtisadi səmərəliliyinin təhlilinə imkan yaradacaq.

Beləliklə, “AIREX 2026” sərgisi yerli bazar iştirakçıları ilə beynəlxalq investorları, aparıcı innovasiya şirkətlərini, nüfuzlu sənaye iştirakçılarını bir platformada birləşdirməklə, tərəfdaşlıq münasibətlərinin qurulmasına, müasir inkişaf və investisiya təşəbbüslərinin müəyyənləşməsinə, peşəkar təcrübə mübadiləsinə və müasir bazar yanaşmalarının tətbiqinə sanballı töhfələr verəcək.

Eyni zamanda, Qarabağın quruculuq layihələrində yeni dəyərləndirmələri təşviq etməklə, yeni investisiya qərarlarının qəbul olmasında mühüm rol oynayacaq.

E.CƏFƏRLİ

Azərbaycan-Böyük Britaniya münasibətləri yüksələn xətlə inkişaf edir

Ikinci Azərbaycan-Britaniya Siyasət Forumunda mühüm məsələlər müzakirə olunub

Azərbaycanın çoxşaxəli xarici siyasətində əsas istiqamətlərdən birini də Böyük Britaniya ilə münasibətlər tutur. Böyük Britaniya-Azərbaycan arasında əlaqələr tarixi və strateji əhəmiyyətə malikdir. İki ölkənin münasibətlərinin müasir tarixi öz başlanğıcını 90-cı illərin əvvəllərindən götürür. Böyük Britaniya Azərbaycanın müstəqilliyinin bərpasını tanıyan ilk Qərb ölkələrindən biridir. Birləşmiş Krallıq 1991-ci il dekabrın 31-də Azərbaycanın müstəqilliyini tanıyıb. Ölkələrimiz arasında diplomatik münasibətlər isə 1992-ci il martın 11-də qurulub. Ötən müddətdə iki ölkə arasında əlaqələrin genişləndirilməsi baxımından yüksək nailiyyətlər əldə olunub.

Qeyd edək ki, ölkələrimiz arasında siyasi əlaqələr müxtəlif formatlarda uğurla davam etdirilir. Belə ki, 2016-cı ildən etibarən xarici işlər nazirlikləri arasında strateji dialoqun iclasları keçirilir. Həmçinin 1997-ci ildə Milli Məclisdə Böyük Britaniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu, Birləşmiş Krallıq parlamentində isə 2014-cu ildə Azərbaycan üzrə parlament qrupu (All Party Parliamentary Group on Azerbaijan) təsis edilib. Bu qrupların birgə fəaliyyəti nəticəsində iki ölkənin parlament üzvləri arasında işçi əlaqələr yaradılıb, qarşılıqlı səfərlər həyata keçirilib.

İki ölkə arasında siyasi münasibətlərimizin yüksək səviyyədə olması iqtisadi münasibətlərə də müsbət təsirini göstərib. Böyük Britaniya Azərbaycan iqtisadiyyatına ən çox investisiya yatıran ölkədir. Ölkələrimizin iqtisadi əlaqələrində neft-qaz sahəsində əməkdaşlıq mühüm yer tutur. BP Azərbaycanın neft-qaz sektorunda çalışan əsas Britaniya şirkətidir. Şirkət Azərbaycanın neft-qaz sektorunun inkişafına və modernləşdirilməsinə mühüm töhfələr verməklə enerji sektorunda ölkəmizin əsas tərəfdaşı qismində çıxış edir. BP “Azəri-Çıraq-Günəşli”, “Şahdəniz” layihələrinin operatoru, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərlərinin, Cənub Qaz Dəhlizinin komponentləri olan Cənubi Qafqaz boru kəmərinin, TANAP, TAP kimi irimiqyaslı layihələrin əsas sərmayədarlarından biridir. BP Azərbaycanda ən böyük xarici investordur. 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi” imzalandığı vaxtdan etibarən SOCAR və BP arasında enerji sahəsində uğurlu əməkdaşlıq qurulub və 2017-ci il sentyabrın 14-də SOCAR və BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının 2050-ci ilin iyulunda Prezident İlham Əliyevin Böyük Britaniyanın Baş nazirinin dəvəti ilə “Avropa Siyasi Birliyi” 4-cü Zirvə toplantısında iştirak etmək üçün İngiltərəyə işgüzar səfəri də ölkələrimiz arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi və əlaqələrimizin daha da dərinləşdirilməsi baxımından mühüm töhfə oldu.

Böyük Britaniyanın yüksək səviyyəli nümayəndə heyətləri də dəfələrlə Azərbaycanda səfərdə olub. Bu səfərlər Azərbaycan ilə Birləşmiş Krallıq arasında ikitərəfli münasibətlərə təkan verməklə yanaşı, əlaqələrimizə yeni impuls qazandırır.



İki ölkə arasında əlaqələrin əhəmiyyəti bugünlərdə Londonda keçirilən İkinci Azərbaycan-Britaniya Siyasət Forumunda səsləndirilib. Britaniyadan və Azərbaycandan 70-ə yaxın diplomatı, ictimaiyyət nümayəndəsini, biznes nümayəndələrini bir araya toplayan Forumun açılış sessiyasında Azərbaycanın Britaniyadakı səfiri Elin Süleymanov, Britaniya parlamentinin İcmalar Palatasının deputatı, Britaniya parlamentində Azərbaycan üzrə Qrupun sədri Bob Bləkmən, Britaniya parlamentinin Lordlar Palatasının üzvü, hazırkı Leyborist hökumətində keçmiş nazir Lord Vajid Xan, bp şirkətinin Xəzər bölgəsində Xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış ediblər. Çıxışlarda vurğulanıb ki, Azərbaycan-Böyük Britaniya münasibətləri özünün ən güclü dövrünü yaşayır.

Azərbaycanın bu ölkədəki səfiri Elin Süleymanov bildirib ki, Azərbaycan və Britaniya münasibətləri zamanın sınağından keçib. Bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi qərarı da mövcud etibarlı tərəfdaşlığın məntiqi davamıdır.

Böyük Britaniyanın Azərbaycandakı səfiri Norman Dunkan videoçıxışında forumun olduqca əhəmiyyətli bir vaxtda - Azərbaycan və Britaniya arasında strateji tərəfdaşlığın sürətlə inkişaf etdiyi və iki ölkə arasında müxtəlif sahələr üzrə daha dərin əməkdaşlığa imkan yaratdığı bir vaxtda keçirilməsinin önəminə diqqət çəkib.

Britaniya parlamentinin İcmalar Palatasının deputatı, Britaniya parlamentində Azərbaycan üzrə Qrupun sədri Bob Bləkmən Azərbaycana səfərlərini yada salıb. 2023-cü ildə ölkəmizə baş tutan səfəri zamanı azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesi ilə yaxından tanış olmaq imkanının yarandığını deyib. Bu xüsusda o, Britaniyanı Azərbaycanda mina fəaliyyətinə dəstək verməyə davam etməyə səsləyib.

Hakim Leyboristlər partiyasından Britaniya parlamentinin Lordlar Palatasının üzvü, həmçinin parlamentdə Azərbaycan üzrə Qrupun üzvü Lord Vajid Xan Azərbaycanla bağlı müşahidə etdiyi ən vacib məqamın Azərbaycanın öhdəsinə götürdüyü bütün vədləri yerinə yetirməsinin olduğunu deyib. O, dünyanın yaşıl keçiddən danışdığı dövrdə Azərbaycanın bu xüsusda konkret addımlar atdığını, layihələr həyata keçirdiyini, COP29 tədbirini uğurla təşkil etdiyini söyləyib.



bp şirkətinin Xəzər bölgəsində Xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə iki ölkə arasında ənənəvi və alternativ enerji sahəsində həyata keçirilən layihələrdən bəhs edərək, Azərbaycan-Britaniya münasibətlərinin son üç onillikdən uzun bir müddətdə dəyişən reallıqlar fonunda uğurla təkamül etdiyini vurğulayıb.

Açılış sessiyasından sonra tədbir panel müzakirələr formatında davam edib. Regional təhlükəsizlik kontekstində ikitərəfli münasibətlərə həsr olunan birinci panelə Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev moderatorluq edib. Panel iclasda müvafiq geosiyasi reallıqların, kritik minerallarla bağlı ehtiyacların, Mərkəzi Asiya və Azərbaycanı birləşdirən C6 formatında əməkdaşlığın, Orta Dəhlizin, müdafiə və təhlükəsizlik mühitinin Azərbaycan-Britaniya münasibətlərini necə şəkilləndirdiyi müzakirə edilib.

XLinks, Yaşıl Enerji Dəhlizi Şirkəti (GECO), Yaşıl Dəhliz Alyansının mütəxəssislərinin iştirakı ilə keçirilən Forumun ikinci paneli isə Azərbaycan və Britaniya arasında enerji əməkdaşlığının təkamülü - regional interkonnektor təşəbbüslərinin müzakirəsinə həsr olunub.

Tədbirin bağlanış hissəsində Azərbaycanın Britaniyadakı səfirliyinin müşaviri Günel Səlimova və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun tərəfdaşlıqlar üzrə rəhbəri Nərgiz İsmayılova çıxış edərək forumun iki ölkə arasında münasibətlərin müxtəlif aspektlərinə nəzər salan əlverişli platforma təşkil etdiyini nəzərə çatdırıb. Qeyd olunub ki, ikitərəfli münasibətlərin daha da gücləndirilməsi üçün qarşılıqlı imkan və marağın mövcud olması forum iştirakçılarının yekdil mövqeyidir.

Nardar BAYRAMLI

Təşəbbüsdən iqtisadi gücə...

Azad sahibkarlıq iqtisadi inkişafın dayağıdır

İqtisadiyyatın gələcəyini bəzən böyük sənaye müəssisələrindən daha çox kiçik bir emalatxanada, yeni məhsul hazırlayan gəncin ideyasında, kənddə qurulan emal sexində və ya ilk dəfə xarici bazara çıxmağa hazırlaşan yerli kiçik bir şirkətin uğurunda görmək olur. Bu təşəbbüslərin hər biri uğur qazandıqda yalnız bir sahibkarın gəliri artmır, yeni iş yerləri yaranır, rəqabət güclənir, istehlakçı daha geniş seçim əldə edir və nəticədə ölkənin iqtisadi imkanları genişlənir. Məhz buna görə azad sahibkarlıq və liberal iqtisadiyyatın təşviqi iqtisadi siyasətin mühüm istiqamətlərindən biri hesab olunur.

Azad sahibkarlıq insanlara öz bilik və bacarıqlarını iqtisadi fəaliyyətə çevirmək, sərmayə qoymaq, yeni məhsul və xidmətlər yaratmaq imkanı verir. Liberal iqtisadiyyat isə bu təşəbbüslərin rəqabət, sərbəst seçim, mülkiyyət hüququ və aydın qanunlar əsasında inkişafını nəzərdə tutur. Belə bir mühitdə uğurun əsas şərti yalnız bazarda iştirak etmək deyil, daha keyfiyyətli məhsul təqdim etmək, yeniliklərə açıq olmaq və istehlakçının etimadını qazanmaqdır.



İqtisadi inkişafın hərəkətverici qüvvəsi

Sahibkarlıq iqtisadiyyatın yalnız bir sahəsi deyil, müxtəlif istiqamətləri hərəkətə gətirən mühüm qüvvədir. Yeni müəssisənin fəaliyyətə başlaması istehsal zəncirində digər iştirakçılara da tələbat yaradır: xammal istehsalçısı, nəqliyyat şirkəti, xidmət göstərən müəssisə və satış şəbəkəsi bu prosesdən faydalana bilir. Beləliklə, bir sahibkarlıq təşəbbüsü bir neçə iqtisadi fəaliyyət istiqamətinin inkişafına təkan verir.

Xüsusilə, kiçik və orta sahibkarlığın genişlənməsi iqtisadi fəallığın daha çox sahəyə və əraziyə yayılmasına şərait yaradır. Kiçik müəssisələr yerli tələbatı daha çevik qarşılaya, bazardakı dəyişikliklərə tez uyğunlaşa və yeni iş imkanları yarada bilirlər. Onların böyüməsi isə zamanla daha iri istehsal və ixrac layihələrinin meydana çıxmasına zəmin hazırlayır.

Burada əsas məsələ sahibkarlıq subyektlərinin sayının artması ilə kifayətlənməməkdir. Müəssisələrin nə qədər məhsuldar işləməsi, yaratdıqları əlavə dəyər, işçilərin peşəkarlığının yüksəlməsi və bazarda davamlı mövqe qazanması da iqtisadi inkişafın keyfiyyətini müəyyən edir.

Azərbaycan Respublikası Media və Yayım Şurası

Məqalə "Azərbaycan Respublikası Media və Yayım Şurası"nın maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti üzrə hazırlanmışdır

Biznes mühitinin genişləndirilməsi istiqamətində yeni addımlar

Azərbaycanda azad sahibkarlığın, investisiya fəaliyyətinin və qeyri-neft-qaz sektorunun inkişafına yönələn tədbirlər son aylarda yeni mexanizmlərlə davam etdirilir. Bu istiqamətdə diqqətçəkən yeniliklərdən biri 2026-cı il avqustun 21-də İqtisadiyyat Nazirliyinin təqdim etdiyi dövlət dəstəyi mexanizmləri olub. Tədbirdə sahibkarların maliyyələşmə imkanlarının artırılması, yerli istehsalın genişləndirilməsi və ixrac xərclərinin azaldılması ilə bağlı konkret alətlər açıqlanıb. Yeni mexanizmlər çərçivəsində Bakı və Abşeron istisna olmaqla, digər ərazilərdə sahibkarlara illik faiz dərəcəsi 13 faizədək olan kreditlər üzrə faizlərin 50 faizi həcmində subsidiya verilməsi nəzərdə tutulur. Kreditlərin əsas borcu üzrə dövlət zəmanəti işğaldan azad edilmiş ərazilərdə 90 faizədək, digər regionlarda isə Bakı və Abşeron istisna olmaqla 50 faizədək müəyyən edilir. Bu addımların məqsədi sahibkarın maliyyə yükünü azaltmaq, investisiya layihələrinin reallaşmasını asanlaşdırmaq və regionlarda iqtisadi fəallığı artırmaqdır.

İxrac sahəsində də yeni imkanlar yaradılır. Azərbaycan mənşəli qeyri-neft-qaz məhsullarının xarici bazarlara daşınması zamanı nəqliyyat xərclərinin 70 faizədək hissəsinin dövlət tərəfindən qarşılanması mexanizmi 2026-cı il sentyabrın 1-dən tətbiq edilməyə başlanıb və 10 il müddətinə nəzərdə tutulub. Mikro, kiçik və orta sahibkarlıq subyektləri olan ixracatçılar üçün gömrük rəsmiləşdirilməsi xərclərinin bir hissəsinin kompensasiyası mexanizmi də müəyyənləşdirilib. Bu tədbirlər yerli istehsalçının xarici bazara çıxış xərclərini azaltmaq və Azərbaycan məhsullarının rəqabət qabiliyyətini artırmaq baxımından əhəmiyyətlidir.

İstehsalın genişləndirilməsi üçün infrastruktur xərclərinin azaldılması da diqqətdədir. 2027-2030-cu illərdə yeni sənaye və kənd təsərrüfatı obyektlərinin elektrik şəbəkəsinə qoşulması zamanı sahibkarın ödədiyi qoşulma haqqının 50 faizinin dövlət tərəfindən qarşılanması nəzərdə tutulur. Belə bir yanaşma xüsusilə yeni istehsal müəssisəsi qurmaq istəyən sahibkarların ilkin maliyyə yükünün yüngülləşdirilməsinə xidmət edə bilər.

Yeni investisiya imkanları yaranır

İqtisadi təşviq mexanizmlərinin nəticələrini qiymətləndirərkən konkret göstəricilər xüsusi əhəmiyyət daşıyır. İqtisadiyyat Nazirliyinin məlumatına görə, 2026-cı il oktyabrın 1-dək 528 sahibkarlıq subyektinə 633 investisiya təşviqi sənədi təqdim edilib. Həmin layihələrin reallaşdırılması nəticəsində yerli istehsala 9,3 milyard manat investisiya yatırılması və 47 min iş yerinin açılması nəzərdə tutulur.

Layihələrin 86,7 faizinin regionların payına düşməsi də diqqətəlayiq məqamdır. Bu göstərici investisiya təşviqlərinin iqtisadi imkanların paytaxtdan kənarda genişlənməsi baxımından əhəmiyyətini ortaya qoyur. Sənədlərin əhəmiyyətli hissəsinin sənaye və kənd təsərrüfatı layihələrini əhatə etməsi isə yerli xammalın emalı, istehsal zəncirinin genişləndirilməsi və əlavə dəyərin ölkə daxilində yaradılması üçün potensialı göstərir. Bununla belə, qeyd olunan investisiya və məşğulluq rəqəmləri gözlənilən nəticələrdir; onların faktiki reallaşması layihələrin icrasından asılıdır.

Texnoloji sahibkarlıq üçün yeni fürsətlər

Azad sahibkarlığın müasir mərhələsi artıq yalnız ənənəvi istehsal və ticarətlə məhdudlaşmır. Süni intellekt, kibertəhlükəsizlik, robototexnika, bulud texnologiyaları və rəqəmsal xidmətlər yeni biznes modellərinin yaranmasına şərait yaradır. Bu sahələrdə fəaliyyət göstərən şirkətlər bəzən böyük istehsal infrastrukturu olmadan da innovativ məhsul hazırlaya, beynəlxalq müştərilərə xidmət göstərə və xarici bazarlara çıxa bilirlər.

Bu baxımdan Azərbaycanda 2026-cı il oktyabrın 22-də texnologiya və innovasiya sahələrinə aid qanunvericilik dəyişikliklərinin təsdiqlənməsi diqqət çəkir. Oktyabrın 29-da İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin keçirdiyi məlumatlandırma tədbirində yeniliklərin tətbiqi və sahibkarlar üçün yaratdığı imkanlar izah edilib. Dəyişikliklər texnopark rezidentliyi imkanlarının genişləndirilməsini, frilanserlərin və rəqəmsal köçərilərin bu ekosistemə daxil olmasını, innovativ sahələr üzrə fəaliyyətin təşviqini nəzərdə tutur.

Müəyyən edilmiş meyarlara cavab verən yeni texnopark rezidentləri üçün 2027-ci il yanvarın 1-dən etibarən bir sıra vergi güzəştlərinin müddətinin 20 iləədək uzadılması, startaplara investisiyanın stimullaşdırılması və vençur kapitalı ilə kraudfandinq investisiyalarına dair təşviqlərin tətbiqi nəzərdə tutulur. Bu dəyişikliklər texnoloji ideyaların biznesə çevrilməsini, innovativ layihələrin maliyyə mənbələrinə çıxışını və rəqəmsal iqtisadiyyatın genişlənməsini dəstəkləmək məqsədi daşıyır. Güzəştlər avtomatik deyil, müvafiq şərtlərə və uyğunluq meyarlarına bağlıdır.

Texnologiya sahibkarlığının inkişafı yalnız vergi güzəştləri ilə məhdudlaşmamalıdır. Startapların ilkin maliyyəyə çıxışı, təcrübəli mütəxəssislərin hazırlanması, universitetlərlə biznes arasında əməkdaşlıq və innovativ məhsulların bazarda sınaqdan keçirilməsi də vacibdir. İdeyanın kommersiya uğuruna çevrilməsi üçün onun real ehtiyaca cavab verməsi və müştəriyə dəyər yaratması əsas şərtdir.

Yeganə BAYRAMOVA

Vergi güzəştlərinin əhatə dairəsi genişləndirilir

Vergi Məcəlləsinə növbəti əlavə və dəyişikliklərin edilməsi nəzərdə tutulur. Dəyişikliklərlə bağlı layihə Milli Məclisə təqdim olunub. İqtisadiyyat Nazirliyinin Aparat rəhbəri Elvin Camalov bildirib ki, layihə yerli istehsaldan, xidmət ixracından və turizm sahəsində əcnəbilərə göstərilən xidmətlərdən əldə olunan gəlirlər üzrə mənfəət və gəlir vergisi güzəştlərini, mikro sahibkarlıq subyektləri statusundan böyüyən müəssisələr, həmçinin davamlı fəaliyyət göstərən kiçik sahibkarlar üçün təşviqləri nəzərdə tutur. Eyni zamanda, bir sıra sahələrdə, o cümlədən səhiyyə və kənd təsərrüfatında tətbiq olunan vergi güzəştlərinin müddətinin uzadılması da layihədə əksini əcnəbilərə göstərilən xidmətlərdən əldə olunan gəlirlər üzrə mənfəət və gəlir vergisi güzəştlərini, mikro sahibkarlıq subyektləri statusundan böyüyən müəssisələr, həmçinin davamlı fəaliyyət göstərən kiçik sahibkarlar üçün təşviqləri nəzərdə tutur. Eyni zamanda, bir sıra sahələrdə, o cümlədən səhiyyə və kənd təsərrüfatında tətbiq olunan vergi güzəştlərinin müddətinin uzadılması da layihədə əksini tapıb.



Biznes mühitinin gücləndirilməsi, investisiya fəallığının təşviqi

Növbəti ildə gəlirlər sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etməkdir. Bu tədbirlər çərçivəsində vergi borclarının idarə olunması sahəsində daha çevik yanaşmaların tətbiqi və könüllü ödəniş intizamının gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.

Vergi siyasətində prioritetlərdən biri olan biznes mühitinin daha əlverişli və proqnozlaşdırıla bilən əsaslarla formalaşdırılması, real sektorun inkişafını dəstəkləyən mexanizmlərin gücləndirilməsi və investisiya fəallığının təşviqidir. Bu çərçivədə müddəti başa çatan vergi güzəşt və azadolmalarının müddətinin uzadılması, qeyri-neft sektorunun inkişafı məqsədilə nəticəyönümlü yeni güzəştlərin müəyyən edilməsi nəzərdə tutulur.

Vergi gəlirlərinin dayanıqlılığının təmin edilməsi baxımından əsas istiqamətlərdən biri vergitutma bazasının genişləndirilməsi və vergitutma obyektlərinin daha dəqiq müəyyən edilməsidir. Bu çərçivədə uçot, hesabat və ödəmə intizamına nəzarətin gücləndirilməsi nəzərdə tutulur.

Vergi ödəyicilərinə münasibət yumşaldılacaq

Gələn il vergi siyasətində prioritetlərdən biri də vergi borcları üzrə möhlət mexanizminin sadələşdirilməsi və təşviqlərin tətbiqidir. Bu plana əsasən, vergi borclarının idarəolunması sahəsində əsas istiqamətlərdən biri borcların tənzimlənməsi mexanizmlərinin sadələşdirilməsi, ödəyicilər üçün daha çevik yanaşmaların tətbiqi və könüllü ödəniş intizamının gücləndirilməsi nəzərdə tutulur. Bu kursa əsasən, vergi inzibatçılığının gücləndirilməsi ilə yanaşı, vergi ödəyicilərinə münasibətin bir qədər yumşaldılması nəzərdə tutulur. Belə ki, vergi borcları üzrə möhlət verilməsi prosedurlarının təkmilləşdirilməsi, ödəmə qabiliyyətində çətinlik yaşayan, lakin iqtisadi fəaliyyətini davam etdirən vergi ödəyiciləri üçün daha əlverişli mexanizmlər müəyyən ediləcək. Bundan əlavə, müəyyən şərtlər daxilində maliyyə sanksiyaları və penya üzrə güzəştlərin tətbiqi də nəzərdən keçiriləcək.

Mobil telefonlar POS-terminal hesab ediləcək

Növbəti ildə vergi ödənişlərində rəqəmsal ödəniş kanallarının genişləndirilməsi də əsas prioritetlərdən biri olacaq. Elektron ticarət ödənişlərinin optimallaşdırılması çərçivəsində vergi orqanlarında uçotda olmayan şəxslərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən vergi tutulmasına nəzarət artırılacaq. İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlər alıcısı Azərbaycanda olan iş və xidmətlərin təqdim edilməsinə görə, mütləq vergi uçotuna alınacaq. Həmçinin, "Elektron ticarət haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, POS-terminal ödənişinin tətbiqi sırasına mobil telefonlar da daxil ediləcək. Belə ki, lazımi proqram təminatı ilə təmin edilmiş mobil cihaz (mobil operatorların ümumistifadəli telekommunikasiya şəbəkələrində mobil xidmət alan telefon aparatı və digər son avadanlıqlar da POS-terminal sayılacaq, nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin alınması üçün istifadə olunacaq.

Növbəti illərdə ölkədə rəqabətqabiliyyətli və innovasiyayönümlü biznes mühitinin formalaşdırılması istiqamətində İKT sektoru, startaplar, həmçinin yüksəkixtisaslı kadrlar üçün daha elastik vergi siyasətinin həyata keçirilməsi də planlaşdırılır. Bu sahədə süni intellekt texnologiyalarının istifadəsinə istiqamətlənmiş vergi stimullarının artırılması əsas prioritetlərdən biri kimi müəyyən edilib. Həyata keçirilən tədbirlər Azərbaycanın yüksək texnologiyalara söykənən iqtisadi modelə transformasiyasını təmin etməyə yönəlib.

E.CƏFƏRLİ

Bakıda ilk Akvakultura Forumu keçirilib

Akvakultura sənayesinin inkişafı və hədəfləri

Bakıda keçirilən Birinci Azərbaycan Regional Akvakultura Forumunda dövlət və özəl sektorun təmsilçiləri, xarici ölkələrin iqtisadi qurumları və biznes icması, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) təmsilçilərinin iştirakı ilə balıqçılıq təsərrüfatının mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tədbirdə Azərbaycan akvakulturasında yüksək əlavə dəyərin yaradılmasında və balıqçılıq, eləcə də dəniz məhsullarının ixracının inkişafında özəl sektorla əməkdaşlığın gücləndirilməsi, xarici ölkələrin və şirkətlərin təcrübəsinin öyrənilməsi, bu istiqamətdə əməkdaşlığın artırılması və digər məsələlərə diqqət yetirilib.

Bildirilib ki, ölkəmizdə akvakulturanın (su bioresurslarının yetişdirilməsinin) inkişafı məqsədilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" qəbul edilib. Sənədə əsasən, balıqçılıq və akvakultura sahəsində səlahiyyətlər Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Kənd Təsərrüfatı Nazirliyinə verilib, "Balıqçılıq və Akvakultura Mərkəzi" publik hüquqi şəxs yaradılıb. "Elektron kənd təsərrüfatı" sistemində xüsusi balıqçılıq altsistemi fəaliyyət göstərir. Akvakultura üzrə prioritet zonalar kimi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları hesab olunur.

Balıqçılıq müəssisələri güzəştli kredit alacaq

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov qeyd edib ki, balıqçılıq və akvakultura sektorunda istifadə edilən avadanlıq və texnologiyaların dövlət güzəşti ilə təmin olunması, həmçinin müxtəlif balıq növlərinə görə məhsul subsidiyasının ayrılması hədəflənir. Bu məqsədlə "Balıqçılıq və akvakultura haqqında" yeni qanun qəbul olunub və həmin təsərrüfat sektorunda fəaliyyət göstərən sahibkarlar üçün yeni fəaliyyət imkanları təmin edilib.



"Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" qanunda edilmiş dəyişiklik isə balıqçılıq müəssisələri üçün güzəştli kreditləri nəzərdə tutur. Belə ki, Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) xətti ilə sahibkarlara güzəştli kreditlər veriləcək.

Hədəf 2030-cu ilədək illik istehsalın 7700 tona çatdırılmasıdır

Bu sahənin hüquqi bazasının təkmilləşdirilməsi, damazlıq potensialının gücləndirilməsi, subsidiya və güzəşt mexanizmlərinin formalaşdırılması, eləcə də akvakultura aqroparklarının yaradılması məqsədilə, Nazirlər Kabineti sentyabrda müvafiq qərar qəbul edib. Qərara əsasən, Aqrar Subsidiya Şurası tərəfindən akvakultura təsərrüfatlarının istehsal gücünün artırılması və özünütəminetmə səviyyəsinin yaxşılaşdırılması məqsədilə balıq növləri üzrə məhsul subsidiyası tətbiq ediləcək. 2027-ci il yanvarın 1-dən etibarən tətbiq olunacaq subsidiya və güzəştlər paketi çərçivəsində qızılbalıqkimilər və nərəkimilər balıqlarına hər tona görə 2000 manat, şəkərkimilər və nərəkimilər balıqlarına isə hər tona görə 600 manat məhsul subsidiyası veriləcək. Bundan başqa, Naxçıvan Muxtar Respublikasında yerli süfrəlik yumurta istehsalının bərpası məqsədilə qeydiyyatda olan quşçuluq təsərrüfatlarında istehsal edilərək tədarükçülərə satılan hər 1000 ədəd süfrəlik yumurtaya 30 manat məhsul subsidiyası veriləcək.

Ümumilikdə, güzəşt və dövlət dəstəyi tədbirləri Azərbaycanda peşəkar akvakultura təsərrüfatlarının genişlənməsini, sayının artmasını və məhsuldarlığın yüksəlməsini təmin edəcək. İllik istehsal həcminin mövcud 3400 tondan 2030-cu ilədək 7700 tona çatdırılması planlaşdırılır. Eyni zamanda, akvakultura sahəsində məhsul ixracının 2030-cu ilə bir neçə dəfə artırılması hədəfinə çatmaq mümkün olacaq.

FAO Azərbaycana dəstək verməyə hazırdır

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Avropa və Mərkəzi Asiya üzrə regional rəhbər müavini Nabil Gangi bildirib ki, su ehtiyatlarından səmərəli istifadə, balıq ehtiyatlarının qorunması və bərpası bir sıra ekoloji tələblərə riayət olunmasını zəruri edir. Azərbaycanın Xəzər dənizindəki ərazisi və daxili suları effektiv balıqçılıq idarəetməsi və məsuliyyətli akvakulturanın təmin edilməsi üçün əlverişlidir. Bu ehtiyatların əldə edilməsi üçün su heyvanlarının sağlamlığı, səmərəli su istifadəsi və iqlim riski haqqında daha yaxşı sistemin qurulması da vacib çağırışdır. Bu prinsiplər FAO-nun Mavi Transformasiya strategiyasında əsas yer turur rəhbərlik edir. Təşkilat digər dövlətlərin təcrübəsini, yeni texnologiyaların tətbiqi ilə balıqçılıq təsərrüfatlarının inkişafını dərindən izləyərək müxtəlif ölkələrdə bu sahəyə öz dəstəyini göstərir. FAO akvakultura sahəsində Azərbaycana dəstək verməyə hazırdır və bu sahədə tərəfdaş ölkələri yeni təsərrüfatların qurulmasına yönləndirə bilər.

Balıqçılıq obyektlərinin ətraf mühitə təsirləri qiymətləndiriləcək

Akvakulturanın inkişafı ilə yanaşı, ekoloji mühitə təsirləri də diqqət mərkəzində saxlanılacaq. Bu məqsədilə bir neçə gün əvvəl balıqçılıq və iri təsərrüfatların fəaliyyəti ilə bağlı qanunvericilikdə dəyişiklər edilib. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunlarda edilmiş dəyişikliklərə əsasən, sahibkarlıq sahəsində yoxlamaların dayandırılmasına dair mövcud məhdudiyyətlərin tətbiq edilmədiyi istiqamətlər sırasına balıqçılıq sahəsi də daxil olunub. Dəyişiklik balıqçılıq fəaliyyəti ilə məşğul olan sahibkarlıq subyektlərinin müvafiq qanunvericilik çərçivəsində yoxlanılması imkanlarını genişləndirib. Balıqçılıq infrastrukturu, o cümlədən akvakultura təsərrüfatları üçün də konkret istehsal həcmi müəyyən edilib. Balıqçılıq obyektlərinin illik istehsal həcmi 500 ton və ya daha çox olduqda həmin layihələrin ətraf mühitə təsirinin qiymətləndirilməsi tələb ediləcək. Bu tələb balıq yetişdirilməsi və digər akvakultura fəaliyyəti üçün nəzərdə tutulan iri istehsal layihələrinə şamil olunur.

E.CƏFƏRLİ



Ukrayna nümayəndələri Brüsseldə...

Müharibədən sonrakı bərpa planı müzakirə edilib

Brüsseldə Ukrayna nümayəndələri ilə beynəlxalq tərəfdaşlar arasında ölkənin müharibədən sonrakı bərpası və 2027-ci ildə maliyyələşdirilməsi məsələlərinə həsr olunmuş iki görüş keçirilib.

Bu barədə Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rustem Umerov "Telegram" kanalında yazıb.

Onun sözlərinə görə, ilk görüşdə Ukraynanın bərpasının əsas istiqamətlərini, investisiyaların cəlb edilməsini və iqtisadiyyatın inkişafını müəyyənləşdirəcək "Prosperity Plan" sənədi müzakirə olunub. Danışıqlarda Avropa Komissiyası, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, NATO, Dünya Bankı və "BlackRock" şirkətinin nümayəndələri iştirak ediblər.

Umerov bildirib ki, tərəfdaşlarla üzərində iş aparılan "Prosperity Plan" müharibədən sonra Ukraynanın necə bərpa ediləcəyini, investisiyaların necə cəlb olunacağını və iqtisadi inkişaf üçün hansı imkanların yaradılacağını müəyyənləşdirməlidir. Tərəflər sənəd üzrə konkret növbəti addımları və onların icra müddətlərini razılaşdırıblar.

İkinci görüşdə isə Ukrayna tərəfi 2027-ci il üçün maliyyə ehtiyaclarını, o cümlədən tələb olunan vəsaitin həcmini və büdcə kəsirinin qarşılanması yollarını tərəfdaşlarına təqdim edib. Tərəflər Rusiyadan qaynaqlanan təhdidləri və onlara qarşı birgə mübarizə tədbirlərini də müzakirə ediblər.

Umerovun sözlərinə görə, növbəti mərhələdə Brüsseldə Ukraynanın təhlükəsizlik təminatları ilə bağlı danışıqlar davam etdiriləcək.

O vurğulayıb ki, söhbət təkcə Ukraynanın təhlükəsizliyindən deyil, həm də müharibədən sonra bütün Avropanın yeni təhlükəsizlik arxitekturasından gedir. Onun fikrincə, Ukrayna bu sistemin ayrılmaz hissəsidir və ölkənin uzunmüddətli təhlükəsizliyini təmin edilmədən Avropanın da uzunmüddətli təhlükəsizliyinə nail olmaq mümkün deyil.

Səudiyyə Ərəbistanı və Suriya arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb



Səudiyyə Ərəbistanı və Suriya arasında müdafiə sahəsində əməkdaşlıq haqqında saziş imzalanıb.

Bu barədə Səudiyyə Ərəbistanının "SPA" agentliyi məlumat yayıb. Sənəd Səudiyyə Ərəbistanının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman və Suriya Prezidenti Əhməd Əl Şaraanın dünən Ər-Riyadda keçirdikləri danışıqların yekununda imzalanıb.

Görüşdə tərəflər regionda baş verən son hadisələri, mümkün hərbi eskalasiyanın regional və beynəlxalq təhlükəsizlik və sabitliyə, beynəlxalq gəmiçiliyin təhlükəsizliyinə, enerji təchizatının davamlılığına və qlobal iqtisadi sabitliyə yarada biləcəyi ciddi təhdidləri müzakirə ediblər.

Məhəmməd bin Salman və Əhməd Əl Şaraa qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə mövqelərin və baxışların əksər hallarda üst-üstə düşdüyünü vurğulayıb, bunun iki ölkə arasında mövcud koordinasiya və məsləhətləşmələrin dərinliyini əks etdirdiyini bildiriblər.

Liderlər gərginliyin azaldılması, böhranların qarşısının alınması, fikir ayrılıqlarının dialoq və diplomatiya yolu ilə həlli istiqamətində regional və beynəlxalq səylərin gücləndirilməsinin vacibliyini qeyd ediblər.

Tərəflər, həmçinin Qırmızı dənizdə, Bab əl-Məndəb və Hörmüz boğazlarında dəniz gəmiçiliyinin və su yollarının təhlükəsizliyinə təhdid yaradan bütün fəaliyyətlərin dərhal dayandırılmasının zəruriliyini vurğulayıblar.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının İnkişaf Fondu Suriya Maliyyə Nazirliyi ilə ümumi dəyəri 403 milyon dolları ötən altı güzəştli kredit sazişi imzalayıb.

Vəsaitin 105 milyon dolları 25 mülki müdafiə mərkəzinin tikintisi və bərpasına, 100 milyon dolları xəstəxana və tibb mərkəzlərinin yenilənməsinə, 90 milyon dolları Hələb istilik elektrik stansiyasının bərpasına, 60 milyon dolları zərər çəkmiş 10 minədək yaşayış evinin təmirinə ayrılacaq.

Bundan başqa, su təchizatı sisteminin yenilənməsi və 300 min ağıllı su sayğacının quraşdırılması üçün 30 milyon dollar, dövlət maliyyə xidmətlərinin rəqəmsallaşdırılması layihəsinə isə 18 milyon dollardan çox vəsait nəzərdə tutulub. Layihələr çərçivəsində 7 milyondan çox insanın mülki müdafiə xidmətlərindən, 5 milyon nəfərin elektrik enerjisi təchizatından, 1,5 milyon nəfərin isə yenilənmiş su təchizatı sistemindən faydalanacağı gözlənilir.

Suriya maliyyə naziri Məhəmməd Yasir Bərniyə daha əvvəl bildirmişdi ki, Səudiyyə Ərəbistanı ilə ümumi dəyəri 1,5 milyard dollar olan inkişaf layihələrinin növbəti aylarda həyata keçirilməsi planlaşdırılır.

İsveçrə Rusiyaya və Belarusa qarşı yeni sanksiyalar tətbiq edib

İsveçrə Avropa İttifaqının 21-ci sanksiyalar paketində nəzərdə tutulan bir sıra məhdudlaşdırıcı tədbirləri Rusiya və Belarusa qarşı tətbiq edib.

"Report" xəbər verir ki, bu barədə İsveçrə Federal Şurasının yaydığı bəyanatda bildirilib.

Qərara əsasən, 254 fiziki və hüquqi şəxs sanksiya siyahısına daxil edilib. Bundan başqa, üçüncü ölkələrdən olanlar da daxil olmaqla, 41 şirkətə qarşı ixrac nəzarəti tədbirləri sərtləşdirilib.

İsveçrə hakimiyyəti bir sıra təşkilatlarla, o cümlədən 33 Rusiya bankı ilə əməliyyatların aparılmasına da qadağa qoyub.

Sanksiya siyahılarındakı dəyişikliklər noyabrın 5-də qüvvəyə minəcək. Sektor məhdudiyyətləri də həmin gündən tətbiq olunmağa başlayacaq.

Eyni zamanda, Federal Şura 6 fiziki şəxsi və bir şirkəti sanksiya siyahısından çıxarmaq qərarına gəlib.



Su uğrunda yeni geosiyasi rəqabət

Neftdən də qiymətli maye əsrimizin strateji sərvətinə çevriləcəkmi?

XX əsrin geosiyasi mənzərəsini böyük ölçüdə neft, qaz və digər enerji resurslarına nəzarət uğrunda rəqabət müəyyənləşdirirdi. Dövlətlərin iqtisadi qüdrəti, hərbi potensialı və beynəlxalq nüfuzu çox zaman enerji ehtiyatlarına çıxış imkanlarıyla ölçülürdü. XXI əsrdə isə dünya siyasətinin gündəliyində getdikcə daha ciddi yer tutan başqa bir strateji resurs ön plana çıxır: su.

Neftə alternativ enerji mənbələri var, günəş, külək, atom və digər texnologiyalar enerji istehsalında yeni imkanlar yaradır. Suya münasibətdə isə vəziyyət fərqlidir. İnsan həyatı, kənd təsərrüfatı, ərzaq istehsalı, sənaye, energetika və şəhərlərin fəaliyyəti birbaşa su ehtiyatlarından asılıdır. Bu səbəbdən su məsələsi artıq yalnız ekoloji problem və ya kommunal xidmət sahəsi çərçivəsində qiymətləndirilə bilməz, bu resurs milli təhlükəsizliyin, iqtisadi dayanıqlılığın, ərzaq təminatının və dövlətlərarası münasibətlərin əsas komponentlərindən birinə çevrilir.

Rəqəmlər təhlükənin miqyasını aydın göstərir. BMT-nin 2025-ci il Dünya Su İnkişafı Hesabatında qeyd olunur ki, 2022-ci ildə dünyada 2,2 milyard insan təhlükəsiz idarə olunan içməli su xidmətlərindən, 3,5 milyard insan isə təhlükəsiz sanitariya xidmətlərindən məhrum olub. Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) 2025-ci il məlumatlarına əsasən, qlobal şirin su götürülməsinin 70 faizdən çoxu kənd təsərrüfatının payına düşür. Deməli, su ehtiyatlarının azalması yalnız içməli su təminatına təsir göstərmir, bu proses taxıl, pambıq, meyvə-tərəvəz istehsalından başlayaraq ərzaq qiymətlərinə, kənd təsərrüfatı gəlirlərinə və sosial sabitliyə qədər geniş təsir zənciri yaradır.

Problemin daha təhlükəli tərəfi su ehtiyatlarının təkcə azalması yox, qeyri-bərabər paylanmasıdır. Bir çayın mənbəyi bir dövlətin ərazisində yerləşir, suyun əsas hissəsindən isə başqa ölkələr istifadə edir. Yuxarı axında yerləşən dövlətin tikdiyi bənd, yaratdığı su anbarı və ya genişləndirdiyi suvarma sistemi aşağı axındakı ölkələrin iqtisadiyyatına, kənd təsərrüfatına və əhalisinin gündəlik həyatına təsir göstərə bilər. BMT-nin 2024-cü il transsərhəd su əməkdaşlığı hesabatına görə, dünyada 313 çay və göl hövzəsi, 468 yeraltı su hövzəsi iki və ya daha çox dövlət arasında bölüşdürülür. BMT üzvü olan 153 dövlət başqa ölkələrdən gələn və ya başqa ölkələrə axan su ehtiyatlarından asılıdır. Bu göstəricilər suyun dövlət sərhədlərini aşan geosiyasi əhəmiyyətini nümayiş etdirir.

Dünya Meteorologiya Təşkilatının 17 sentyabr 2026-cı ildə açıqladığı "State of Global Water Resources 2025" hesabatı vəziyyətin daha da mürəkkəbləşdiyini göstərir. Hesabata əsasən, 2025-ci il son 35 ildən artıq müddətdə çay axınlarının ən aşağı olduğu illərdən biri kimi qeydə alınıb. Son yeddi il ərzində normal çay axını müşahidə olunan hövzələrin sayı 1991-ci ildən bəri ən aşağı səviyyəyə düşüb. Eyni zamanda, qlobal su dövranı daha qeyri-sabit xarakter alıb: bəzi regionlar kəskin quraqlıqla, digərləri isə dağıdıcı daşqınlarla üzləşir. Bu mənzərə göstərir ki, gələcəyin su təhlükəsizliyi yalnız ehtiyatların həcmiylə yox, onların mövsümlər üzrə dəyişməsi, idarə olunması və əhali arasında bölüşdürülməsiylə də müəyyən ediləcək.

Dünya Bankının 2025-ci ilin noyabrında açıqladığı "Global Water Monitoring Report" isə başqa bir mühüm məqama diqqət çəkir. Hesabata görə, dünyada hər il 324 milyard kubmetr şirin su itirilir. Bu həcm təxminən 280 milyon insanın illik su ehtiyacını ödəyə bilərdi. İtkilərin səbəbləri arasında quraqlıqla yanaşı səmərəsiz su idarəçiliyi, həddindən artıq suvarma, torpaq və su ekosistemlərinin deqradasiyası, zəif koordinasiya və infrastruktur problemləri göstərilir. Beləliklə, su böhranının səbəblərini yalnız təbiətdə axtarmaq düzgün olmaz, bir çox halda mövcud suyun qorunmaması və səmərəsiz istifadəsi də qıtlığı dərinləşdirir.

Su hövzələri geosiyasi rəqabətin yeni mərkəzinə çevrilir

"Su müharibələri" anlayışı son illər beynəlxalq münasibətlərdə daha çox işlədilsə də, bu ifadənin mahiyyətini düzgün müəyyənləşdirmək vacibdir. Tarixi təcrübə göstərir ki, dövlətlər arasında suyla bağlı mübahisələr çox vaxt birbaşa müharibəyə çevrilməyib. Su diplomatiyası üzrə tanınmış tədqiqatçı Aaron T. Volfun araşdırmaları da transsərhəd su münasibətlərində əməkdaşlığın qarşıdurmadan daha geniş yer tutduğunu göstərir. Lakin bu fakt təhlükənin mövcud olmadığı anlamına gəlmir. Müasir dövrdə su üzərində rəqabət bəndlərin tikintisi, su axınının tənzimlənməsi, müqavilələrin icrası, infrastrukturun təhlükəsizliyi və beynəlxalq danışıqlarda siyasi təsir imkanları vasitəsilə özünü göstərir. Afrikadakı Nil hövzəsi bu rəqabətin ən diqqətçəkən nümunələrindən biridir. Efiopiya Nilin əsas qollarından olan Mavi Nil üzərində Böyük Efiopiya Dirçəliş Bəndini (Grand Ethiopian Renaissance Dam - GERD) 9 sentyabr 2025-ci ildə rəsmi olaraq istifadəyə verib. Təxminən 5 150 meqavat quraşdırılmış gücə malik layihə Efiopiya üçün elektrik enerjisi istehsalını artırmaq, sənayeləşməni sürətləndirmək və enerji ixracı imkanlarını genişləndirmək baxımından strateji əhəmiyyət daşıyır. Misir isə məsələyə başqa prizmadan yanaşır. Ölkənin su təminatı Nil çayından ciddi şəkildə asılıdır və rəsmi Qahirə bəndin doldurulması və istismarı zamanı aşağı axına daxil olan suyun miqdarının xüsusilə quraqlıq dövrlərdə azalacağından narahatdır. Sudan da Nil sisteminin su rejimində baş verən dəyişikliklərdən birbaşa təsirlənə biləcək ölkədir. Beləliklə, bir dövlət üçün enerji və inkişaf layihəsi hesab olunan infrastruktur digər dövlətlər üçün su təhlükəsizliyi məsələsinə çevrilir.



Burada əsas məsələ bəndin mövcudluğu yox, onun necə idarə olunmasıdır. Su anbarının doldurulma qrafiki, quraqlıq dövründə suyun buraxılması, hidroloji məlumatların mübadiləsi və fövqəladə vəziyyətlərdə koordinasiya mexanizmləri razılaşdırılmayanda texniki layihə siyasi böhrana çevrilə bilər. Nil hövzəsinin təcrübəsi göstərir ki, böyük su infrastrukturu yalnız bir ölkənin daxili inkişaf məsələsi kimi qiymətləndirilə bilməz; belə layihələrin təsirləri bütün hövzə üzrə nəzərə alınmalıdır.

Asiyada isə Hindistan və Pakistan arasında 1960-cı ildə imzalanmış Hind Suları Müqaviləsi su diplomatiyasının ən mühüm nümunələrindən biri kimi tarixə düşüb. İki ölkə arasında müharibələrə və uzunmüddətli siyasi gərginliyə baxmayaraq müqavilə onilliklər ərzində su bölgüsünün hüquqi əsasını təşkil edib. Lakin 2025-ci ilin aprelində Hindistan Kəşmirdə baş vermiş terror hücumundan sonra müqaviləni "dayandırılmış vəziyyətə" gətirdiyini bəyan edib. Bu qərar Pakistan tərəfindən kəskin etirazla qarşılanıb. Məsələnin hüquqi tərəfi də diqqətəlayiqdir. 31 avqust 2026-cı ildə Haaqa Daimi Arbitraj Məhkəməsinin katibliyi ilə fəaliyyət göstərən Arbitraj Məhkəməsi Hindistanın müqaviləni birtərəfli qaydada dayandırmaq qərarının hüquqi əsasını qəbul etməyib və Hind Suları Müqaviləsinin qüvvədə qaldığını bildirib. Hindistan isə tribunalın yurisdiksiyasını tanımadığını və qərarı tanımadığını bəyan edib. Beləliklə, su məsələsi iki ölkə arasında siyasi mübahisə olmaqdan çıxaraq beynəlxalq hüququn tətbiqi, müqavilələrin məcburiliyi və dövlətlərin birtərəfli qərarlarının sərhədləri ilə bağlı ciddi müzakirə predmetinə çevrilib.

Bu hadisə mühüm bir həqiqəti ortaya qoyur: dövlətlərarası münasibətlərdə suyun siyasi təzyiq vasitəsinə çevrilməsi regional sabitliyə ciddi zərbə vura bilər. Əgər enerji resursları üzərində rəqabət uzun illər ərzində boru kəmərləri, ixrac marşrutları və qiymət siyasəti vasitəsilə aparılıbsa, su sahəsində rəqabət daha həssas xarakter daşıyır. Çünki suyun alternativi məhduddur və onun çatışmazlığı milyonlarla insanın gündəlik həyatına birbaşa təsir göstərir.

Mərkəzi Asiyada da su və enerji maraqları arasında mürəkkəb qarşılıqlı asılılıq var. Amudərya və Sırdərya çayları regionun bir neçə dövlətinin kənd təsərrüfatı, enerji istehsalı və əhalinin su təminatı üçün həyati əhəmiyyət daşıyır. Yuxarı axında yerləşən ölkələr hidroenerji istehsalına, aşağı axında yerləşən dövlətlər isə əsasən suvarmaya üstünlük verir. Qışda elektrik enerjisinə ehtiyacın artmasıyla yayda suvarma tələbatının yüksəlməsi arasında yaranan ziddiyyət region dövlətlərini ortaq idarəetmə mexanizmlərinə ehtiyac qarşısında qoyur.

Bütün bu nümunələr göstərir ki, gələcəyin su münaqişəsi tankların sərhədi keçməsiylə müşayiət olunmaya bilər. Su axınının məhdudlaşdırılması, su anbarlarının birtərəfli idarə edilməsi, transsərhəd çayların çirkləndirilməsi, müqavilələrin icrasından yayınma və su infrastrukturunun hərbi əməliyyatlar zamanı hədəfə çevrilməsi daha real risklərdir. Bu səbəbdən su diplomatiyası artıq xarici siyasətin texniki istiqaməti yox, milli və regional təhlükəsizlik siyasətinin mühüm hissəsi kimi nəzərdən keçirilməlidir.

Azərbaycanın su təhlükəsizliyi: regional asılılıqdan strateji dayanıqlılığa

Su məsələsi Azərbaycan üçün də xüsusi geosiyasi və iqtisadi əhəmiyyət daşıyır. Ölkənin coğrafi mövqeyi, iqlim xüsusiyyətləri və transsərhəd çaylardan asılılığı su təhlükəsizliyini dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirir. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, ölkənin su ehtiyatları Cənubi Qafqazın ümumi su ehtiyatlarının təxminən 15 faizini təşkil edir. Çay sularının 67-70 faizi qonşu ölkələrin ərazisində formalaşır. Bu göstərici Azərbaycanın su təminatında transsərhəd mənbələrin nə qədər mühüm yer tutduğunu göstərir.

Azərbaycanın 10 oktyabr 2024-cü il tarixli Prezident sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"sında ölkənin bərpa olunan şirin su ehtiyatlarının 26,2 milyard kubmetr olduğu göstərilir. Bunun 13,2 milyard kubmetri transsərhəd yerüstü sulardan, 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri isə yerli çay axınlarından formalaşır. Strategiya 2024-2040-cı illəri əhatə edir və su ehtiyatlarının artırılması, səmərəli istifadəsi, idarəetmənin müasirləşdirilməsi, su itkilərinin azaldılması, içməli və suvarma suyu təminatının yaxşılaşdırılması kimi istiqamətləri müəyyənləşdirir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2026-cı ilin avqustunda yenilənmiş məlumatları da narahatlıq doğurur. Həmin məlumatlara əsasən, 1991-2023-cü illərdə yerli çayların sululuğu 1961-1990-cı illərlə müqayisədə 5-21,2 faiz, transsərhəd çayların sululuğu isə 9,1-21 faiz azalıb. Son on ildə bəzi transsərhəd çaylarda illik su sərfinin çoxillik norma ilə müqayisədə 5-54 faiz azalması qeydə alınıb. Bu rəqəmlər iqlim dəyişmələrinin, su götürülməsinin və hövzələrdə insan fəaliyyətinin ölkənin su balansına təsirini daha aydın göstərir.

Azərbaycanın su təhlükəsizliyi məsələsində Kür və Araz çaylarının xüsusi yeri var. Bu çaylar yalnız təbii su mənbələri yox, həm də regional əməkdaşlığın və qarşılıqlı məsuliyyətin əsas elementləridir. Çayların yuxarı axınında həyata keçirilən su təsərrüfatı fəaliyyəti, suvarma məqsədilə götürülən suyun həcmi, sənaye və məişət tullantılarının çaylara axıdılması aşağı axında yerləşən ərazilərin su keyfiyyətinə və ehtiyatlarına təsir göstərir. Bu səbəbdən transsərhəd su hövzələri üzrə müntəzəm məlumat mübadiləsi, birgə monitorinq və ekoloji standartların tətbiqi Azərbaycan üçün mühüm əhəmiyyət daşıyır. Xüsusilə Araz çayının qollarından olan Oxçuçayla bağlı ekoloji vəziyyət bu məsələnin yalnız suyun miqdarıyla məhdudlaşmadığını göstərir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin apardığı monitorinqlər zamanı çay suyunda nikel, dəmir, manqan və mis-molibden birləşmələrinin normadan artıq göstəriciləri barədə məlumatlar açıqlanıb. Bu kimi hallar transsərhəd çayların mühafizəsi məsələsində ekoloji təhlükəsizlik, şəffaf monitorinq və beynəlxalq əməkdaşlığın vacibliyini bir daha gündəmə gətirir.

Azərbaycanın su siyasətində mühüm addımlardan biri Milli Strategiyanın qəbul edilməsidir. Sənədin 2024-2027-ci illəri əhatə edən birinci mərhələsində su ehtiyatlarının yenidən qiymətləndirilməsi, infrastrukturun təkmilləşdirilməsi, su itkilərinin azaldılması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından istifadə, tullantı və yağış sularının idarə olunması nəzərdə tutulur. 2028-2030-cu illərdə dayanıqlı su və sanitariya sistemlərinin inkişafı, 2031-2040-cı illərdə isə innovativ texnologiyalar və alternativ su mənbələri vasitəsilə su təminatının möhkəmləndirilməsi hədəflənir.

2026-cı il yanvar ayının 12-də Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramının təsdiqlənməsi də deyilən istiqamətdə institusional yanaşmanın davam etdiyini göstərir. Bu proqramın əhəmiyyəti şəhərlərin su təchizatının yaxşılaşdırılmasıyla məhdudlaşmır, sürətli urbanizasiya, əhali artımı, sənaye və xidmət sektorunun genişlənməsi şəraitində su infrastrukturunun dayanıqlılığı ölkənin iqtisadi təhlükəsizliyinin vacib şərtidir. Bununla yanaşı, Azərbaycanın su siyasəti yeni su anbarlarının və boru xətlərinin tikintisiylə də məhdudlaşmamalıdır. Su itkilərinin azaldılması, kənd təsərrüfatında damcı və yağmurlama suvarma sistemlərinin genişləndirilməsi, tullantı sularının təkrar istifadəsi, rəqəmsal monitorinq və süni intellekt əsaslı proqnozlaşdırma mexanizmləri daha böyük strateji əhəmiyyət daşıyır. Su şəbəkələrində itkilərin real vaxt rejimində müəyyənləşdirilməsi, çay axınlarının peyk və sensor məlumatlarıyla izlənməsi, suvarma qrafiklərinin hava proqnozlarına uyğunlaşdırılması və su anbarlarının idarə edilməsində rəqəmsal modellərdən istifadə resursların səmərəliliyini artıra bilər.

Digər mühüm istiqamət Xəzər dənizinin suyunun duzsuzlaşdırılması və alternativ su mənbələrinin inkişafıdır. Duzsuzlaşdırma texnologiyası su ehtiyatlarının məhdud olduğu ölkələr üçün əlavə imkan yaratsa da, onun enerji sərfi, maya dəyəri və ekoloji təsirləri nəzərə alınmalıdır. Bu texnologiya ənənəvi su mənbələrinin qorunmasını əvəz etməməli, ümumi su təhlükəsizliyi sistemini tamamlamalıdır.

Azərbaycan üçün transsərhəd su diplomatiyasının gücləndirilməsi də xüsusi əhəmiyyət daşıyır. Kür və Araz hövzələrində yerləşən dövlətlər arasında hidroloji məlumatların mübadiləsi, suyun keyfiyyətinə birgə nəzarət, quraqlıq və daşqın riskləri barədə erkən xəbərdarlıq, su anbarlarının idarə edilməsində koordinasiya mexanizmləri yaradılmalıdır. Bu əməkdaşlıq siyasi münasibətlərin vəziyyətindən asılı olmayaraq texniki və ekoloji zərurət kimi nəzərdən keçirilməlidir. Çünki çay sərhəd tanımır, yaratdığı risklər isə bütün hövzə dövlətlərinə təsir göstərir.

Beynəlxalq hüquq da bu sahədə mühüm çərçivə yaradır. BMT-nin 1997-ci ildə təsdiqlənmiş Beynəlxalq Su Axarlarının Gəmiçilikdən Kənar İstifadəsi Hüququ haqqında Konvensiyası transsərhəd su ehtiyatlarından ədalətli və ağlabatan istifadə, digər dövlətlərə əhəmiyyətli zərərin vurulmaması və əməkdaşlıq prinsiplərini təsbit edir. Bu prinsiplərin real tətbiqi su mübahisələrinin qarşısının alınması, dövlətlər arasında etimadın gücləndirilməsi və uzunmüddətli regional sabitliyin qorunması baxımından əhəmiyyətlidir.

Bir sözlə, su təhlükəsizliyi məsələsinə yalnız təbii ehtiyatların qorunması kimi yanaşmaq yetmir. Bu sahədə hüquqi mexanizmlər, iqtisadi planlaşdırma, texnoloji yeniliklər, regional diplomatiya və milli təhlükəsizlik tədbirləri vahid sistem şəklində əlaqələndirilməlidir. Azərbaycan üçün bu yanaşma həm mövcud su ehtiyatlarının qorunması, həm də gələcək nəsillər üçün su təminatının etibarlı şəkildə qurulması baxımından strateji əhəmiyyət daşıyır.

XXI əsrdə neft və qazın geosiyasi əhəmiyyəti aradan qalxmayacaq. Lakin suyun iqtisadi və siyasi çəkisi getdikcə artacaq. Dünya Bankının hesablamalarına görə, hər il itirilən 324 milyard kubmetr şirin suyun həcmi milyonlarla insanın həyatına təsir göstərə biləcək miqyasdadır. Dünya Meteorologiya Təşkilatının son hesabatı isə su dövranının daha qeyri-sabit və proqnozlaşdırılması çətin vəziyyətə gəldiyini göstərir. Belə şəraitdə dövlətlərin gücü yalnız malik olduqları təbii ehtiyatlarla deyil, həmin ehtiyatları necə qoruduqları, bölüşdürdükləri və idarə etdikləri ilə də ölçüləcək.

Yaxın onilliklərdə su XXI əsrin neftdən də qiymətli sərvətinə çevriləcəkmi? Bu suala qəti cavab vermək hələ tezdir. Ancaq bir reallıq artıq mübahisə doğurmur: suya çıxış imkanları dövlətlərin ərzaq təhlükəsizliyini, iqtisadi dayanıqlılığını, sosial sabitliyini və regional təsir gücünü müəyyən edən əsas amillərdən birinə çevrilir. Gələcəyin ən ciddi geosiyasi mübarizəsi bəlkə də səngərlərdə yox, çayların mənbələrində, su anbarlarının idarəetmə mərkəzlərində, beynəlxalq danışıq masalarında və beynəlxalq hüququn tətbiqi uğrunda gedəcək. Bu mübarizədə üstünlük suyu siyasi təzyiq vasitəsinə çevirənlərə yox, onu qorumağı, ondan səmərəli yararlanmağı və onu əməkdaşlıq əsasında idarə etməyi bacaran dövlətlərin olacaq.



Kəramət Qənbərov,
Beynəlxalq hüquq üzrə ekspert

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN





100 il öncə Bakıdan gələn səs...

Televiziya və radio işçilərinin bayramıdır

Bir vaxtlar radionun səsi evlərdə ən doğma səslərdən biri idi. Günün xəbərlərini öyrənmək, sevilən mahnıları dinləmək üçün insanlar radio qarşısına toplaşardılar. Sonra həyatımıza televiziya daxil oldu. Kiçik ekranlarda böyük hadisələr canlandı, sevincli anlar, tarixi günlər, unudulmaz çıxışlar milyonlarla tamaşaçının gözü qarşısında yaşandı. Bu gün isə bütün bunlar bir toxunuşla əlçatandır. Dəyişən yalnız texnologiya, yayım imkanları və zamanın tələbləridir. Radio və televiziyanın həyatımızda tutduğu yer isə özünəməxsusluğu ilə seçilir.

1926-cı il noyabrın 6-da Bakının küçə və meydanlarında quraşdırılmış reproduktorlardan eşidilən "Danışır Bakı!" ifadəsi ölkəmizin media tarixində yeni mərhələnin başlanğıcı oldu. O gün sadəcə radio yayımı başlamadı, Azərbaycan cəmiyyətinin dünyaya açılan yeni bir informasiya pəncərəsi yarandı. Bu il həmin tarixi hadisədən düz 100 il ötür. Bir əsrlik radio yoluna, 70 illik televiziya təcrübəsinə nəzər saldıqda qarşımızda yalnız texniki inkişafın deyil, bütöv bir xalqın ictimai, mədəni və mənəvi həyatının salnaməsi canlanır.

Bir əsr əvvəl başlayan böyük yol

20-ci əsrin əvvəllərində radio dünyada yenilik hesab olunurdu. İnsanların uzaq məsafələrdən səs eşitməsi, xəbərləri operativ şəkildə almaması, musiqini və müxtəlif verilişləri eyni vaxtda dinləməsi həyatın informasiya ritmini dəyişdirirdi.

Azərbaycan da bu yeniliyin bir parçasına çevrildi.

İlk verilişlər o dövrün texniki imkanları ilə məhdudlaşsa da, radionun cəmiyyətə təsiri böyük idi. Paytaxtın küçələrində və meydanlarında səslənən radio verilişləri insanları bir araya gətirir, ölkədə və dünyada baş verən hadisələr barədə məlumatlandırırdı. İlk radio studiyasının yerləşdiyi məkan da bu tarixin maraqlı detallarındandır. Azərbaycan radiosu fəaliyyətinin ilk dövründə keçmiş İsmailiyyə binasında, indiki AMEA-nın əsas binasında cəmi 3 otaqda yerləşirdi. Bu kiçik studiyadan başlayan yol zamanla böyük bir yayım sisteminə çevrildi.

Radio təkcə xəbərlərin çatdırılması vasitəsi olmadı. Musiqi, ədəbiyyat, teatr, maarifçilik və mədəniyyət onun əsas məzmun istiqamətlərinə çevrildi. Beləliklə, radio Azərbaycan dilinin, milli musiqinin, söz sənətinin və ictimai düşüncənin geniş auditoriyaya çatdırılmasında mühüm rol oynamağa başladı.

Səsə görüntü əlavə olundu...

Radio insanlara hadisələri dinlətmişdisə, televiziya onları izləmək imkanı yaratdı. Azərbaycan üçün bu, yeni mərhələnin başlanğıcı 1956-cı il fevralın 14-nə təsadüf edir. Həmin gün Bakı Televiziya Studiyası ilk dəfə efirə çıxdı. İlk yayımın yaddaşlarda qalan ən mühüm məqamlarından biri görkəmli aktrisa Nəcibə Məlikovanın ekranda görünməsi idi. Onun səsləndirdiyi "Göstərir Bakı!" sözləri Azərbaycan televiziyasının tarixində xüsusi yer tutdu. Həmin gün tamaşaçılara "Bəxtiyar" bədii filmi də təqdim edildi.

İlk televiziya yayımı indiki imkanlarla müqayisədə olduqca məhdud idi. Verilişlər azsaylı saatlarda yayımlanır, texniki imkanlar geniş proqram seçiminə şərait yaratmırdı. Lakin televiziyanın meydana çıxması insanların gündəlik həyatına tamamilə yeni bir vərdiş gətirmişdi: artıq hadisələri yalnız eşitmək deyil, görmək də mümkün idi.

O illərdə televiziya qülləsinin qurulması, yayım əhatəsinin genişləndirilməsi və yeni texniki avadanlıqların tətbiqi bu sahənin inkişafına təkan verdi. 1957-ci il iyunun 28-də səyyar televiziya vasitəsilə Respublika stadionundan ilk canlı yayımın həyata keçirilməsi isə Azərbaycan televiziya tarixində növbəti əlamətdar hadisə oldu.

Ağ-qara ekrandan rəngli dünyaya...

Televiziyanın inkişafı yalnız proqramların çoxalması ilə məhdudlaşmadı. Texniki yeniliklər efirin keyfiyyətini də dəyişdirdi. İlk illərdə tamaşaçılar hadisələri ağ-qara görüntülərdə izləyirdilər. Sonrakı mərhələdə rəngli yayımın tətbiqi televiziya qarşısında yeni imkanlar açdı.

1960-cı illərdə bölgələrdə televiziya stansiyalarının yaradılması yayım coğrafiyasını genişləndirdi. Gəncə, Göyçay və Şuşada televiziya stansiyalarının qurulması, Naxçıvanda yayım imkanlarının yaradılması paytaxtdan kənarda yaşayan insanların da bu informasiya məkanına qoşulmasına şərait yaratdı.

1967-ci ildən Azərbaycanda rəngli televiziya yayımına keçid başlandı. Bu yenilik efirin vizual imkanlarını genişləndirməklə yanaşı, tamaşaçıların televiziya təcrübəsini də dəyişdi. Artıq tamaşaçılar konsertləri, teatr tamaşalarını, mədəniyyət tədbirlərini və müxtəlif proqramları daha canlı görüntülərlə izləyə bilirdilər.

1996-cı ildə Bakı Teleqüllə Kompleksinin istifadəyə verilməsi isə radio-televiziya yayımının texniki imkanlarının genişlənməsində mühüm mərhələ oldu.

Yeni dövrün efiri

Bu gün radio və televiziya artıq yalnız qəbuledici aparat və ekranla məhdudlaşmır. İnternet, peyk yayımı, rəqəmsal platformalar və mobil tətbiqlər informasiya istehlakının formasını köklü şəkildə dəyişib. İnsanlar sevimli radio proqramlarını avtomobildə, telefonda, kompüterdə dinləyə, televiziya verilişlərini isə canlı yayım zamanı və ya daha sonra internet üzərindən izləyə bilirlər. Ənənəvi efir yeni media platformaları ilə birləşərək daha geniş auditoriyaya çıxış imkanı qazanıb.

Bununla belə, müasir dövrdə informasiya bolluğu ilə yanaşı, yeni problemlər də meydana çıxıb. Sosial şəbəkələrdə yayılan yoxlanılmamış məlumatlar, saxta xəbərlər, manipulyativ məzmun və informasiya çirkliliyi peşəkar medianın məsuliyyətini daha da artırır. Belə bir şəraitdə televiziya və radionun əsas üstünlüyü etibarlılıq, obyektivlik, operativlik və peşəkar yanaşma olmalıdır. Çünki müasir auditoriya yalnız məlumat almaq deyil, həm də həmin məlumatın doğruluğuna əmin olmaq istəyir. Efirin nüfuzu isə məhz bu etimad üzərində formalaşır.

Müharibə illərində efir məsuliyyəti

Azərbaycanın müasir tarixində televiziya və radionun üzərinə düşən ən mühüm vəzifələrdən biri də ölkənin taleyüklü hadisələrini işıqlandırmaq, həqiqətləri ictimaiyyətə və beynəlxalq auditoriyaya çatdırmaq olub. Xüsusilə, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, Birinci Qarabağ müharibəsi, torpaqlarımızın işğalı və sonrakı illərdə baş verən hadisələr zamanı efirlərimizin informasiya missiyası daha da aktuallaşdı. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, xalqın mübarizə əzminin, milli birliyin və dövlətçilik mövqeyinin ifadə olunması televiziya və radionun mühüm fəaliyyət istiqamətlərindən biri idi.

44 günlük Vətən müharibəsi dövründə də informasiya cəbhəsi mübarizənin mühüm istiqamətlərindən birinə çevrildi. Cəbhədən hazırlanan reportajlar, rəsmi məlumatlar, ekspert çıxışları və xüsusi proqramlar ictimaiyyətin məlumatlandırılmasında əhəmiyyətli rol oynadı.

İşğaldan azad edilən ərazilərdə radio-televiziya yayımının bərpası da bu baxımdan xüsusi məna daşıyır. 2020-ci il dekabrın 31-dən Şuşa, Xankəndi və Xocalı, Ağdam, Bərdə rayonlarının bir sıra ərazilərində yayımın bərpası informasiya məkanının genişlənməsi ilə yanaşı, həyatın yenidən canlanmasının da rəmzi hadisələrindən biri oldu.

Efirin görünməyən qəhrəmanları

Televiziya və radio dedikdə, ilk növbədə, ekran qarşısında gördüyümüz aparıcılar, diktorlar, müxbirlər yada düşür. Halbuki hər bir verilişin, reportajın və canlı yayımın arxasında böyük bir kollektivin əməyi dayanır. Jurnalistlər, redaktorlar, rejissorlar, operatorlar, səs rejissorları, montajçılar, mühəndislər, texniki heyət və bir çox başqa peşə sahibləri efirin fasiləsiz fəaliyyətini təmin edirlər. Tamaşaçıya bir neçə dəqiqəlik təqdim olunan süjetin arxasında bəzən saatlarla davam edən hazırlıq, araşdırma və çəkiliş prosesi dayanır.

Xüsusilə, canlı yayım zamanı bu məsuliyyət daha aydın hiss olunur. Saniyələrin belə əhəmiyyət daşıdığı efirdə peşəkarlıq, çevik qərarvermə, komanda işi və məsuliyyət əsas şərtlərdir. Ekranda görünməyən, amma hər gün efirin arxasında çalışan insanların zəhməti də bu peşə bayramının mühüm məqamlarından biridir.

Yeganə BAYRAMOVA

Süni intellekt hazır məlumatlar olmadan yeni biliklər əldə edə biləcək



Təl-Əviv və Stenford universitetlərinin alimləri süni intellektin hazır məlumatlardan istifadə etmədən, öz-özünə tapşırıqlar yaradaraq öyrənməsinə imkan verən yeni üsul hazırlayıblar. Bu yanaşma gələcəkdə süni intellekt sistemlərinin hazırlanması üçün böyük həcmdə məlumat toplamaq ehtiyacını azalda bilər.

AZƏRTAC TPS-IL mətbuat xidmətinə istinadla xəbər verir ki, tədqiqat iki süni intellekt sisteminin qarşılıqlı fəaliyyətinə əsaslanır. Sistemlərdən biri müxtəlif tapşırıqlar yaradır, digəri isə həmin tapşırıqları həll etməyə çalışır. Nəticələrə əsasən, tapşırıqlar yaradan sistem daha faydalı çalışmalar hazırlamağı öyrənir. Beləliklə, hər iki sistem bir-birinin köməyi ilə inkişaf edir.

Təcrübələr zamanı süni intellekt müstəqil şəkildə riyazi qanunauyğunluqları müəyyən edib, həmçinin mətn, şəkil və digər məlumatlarla bağlı proqnozlaşdırma bacarıqlarını təkmilləşdirib.

Alimlərin fikrincə, bu üsul xüsusilə məlumatların az olduğu və ya əldə edilməsinin baha başa gəldiyi sahələrdə faydalı ola bilər. Eyni zamanda, ənənəvi təlimdən əvvəl tətbiq edilərək süni intellektin yeni məlumatları daha sürətli mənimsəməsinə kömək edə bilər.

Bununla belə, tədqiqat hələ ilkin mərhələdədir. Təcrübələr kiçik modellər üzərində aparılıb və metodun daha böyük süni intellekt sistemlərində də eyni nəticəni verəcəyi hələ təsdiqlənməyib. Tədqiqatçılar bildirirlər ki, bu yanaşma real dünya haqqında faktiki bilikləri əvəz etmir, lakin süni intellektin öyrənmə imkanlarını genişləndirə bilər.

UNEP: Dünya mövcud iqlim şəraitinə uyğunlaşmağa hazır deyil

BMT-nin Ətraf Mühit Proqramı (UNEP) çərşənbə günü dərc etdiyi hesabatda qeyd edib ki, qlobal istiləşmənin 1,5°C-ni keçəcəyi proqnozlaşdırılsa da, icmaların iqlim dəyişikliyinə uyğunlaşmasına kömək etmək üçün ayrılan maliyyə vəsaiti ehtiyaclardan çox aşağıdır.

Təşkilatın məlumatına görə, 2026-cı il üçün Uyğunlaşma Fərqi Hesabatında inkişaf etməkdə olan ölkələrin 2035-ci ilə qədər dayanıqlılığı artırmaq və riskləri azaltmaq üçün ildə təxminən 305 milyard dollara ehtiyac duyacağı bildirilir. Bundan başqa, beynəlxalq dövlət uyğunlaşma maliyyəsi üç dəfə artsa belə, ehtiyacların maksimum 29 faizi ödəniləcək.

UNEP-in icraçı direktoru İnqer Andersen xəbərdarlıq edib: "Gələcəkdə 1,5°C-nin həddindən artıq istiləşməsinin nələrə səbəb olacağından asılı olmayaraq, dünya mövcud iqlim şəraitinə uyğunlaşmağa hazır deyil".

Hesabat gələn həftə Türkiyənin Antalya şəhərində açılacaq COP31 konfransından əvvəl dərc edilib.

UNEP aşağıdakı amilləri ortaya qoyur: inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə uyğunlaşmasına kömək etmək üçün qlobal səylər maliyyələşdirilməmiş qalır, institusional maneələr tətbiqi məhdudlaşdırır, iqlimlə bağlı itkilər və zərərlər artmaqda davam edərkən beynəlxalq dövlət uyğunlaşma maliyyəsi axınları 2024-cü ildə 28,2 milyard dollardan 31,7 milyard dollara çatıb ki, bu da əvvəlki ilə nisbətən cəmi bir milyard dollar çoxdur.



Qeyd olunub ki, artım sabitləşir, üstəlik, 305 milyard dollarlıq qiymətləndirmə özəl sektorun öz ehtiyaclarını istisna edir, yəni bu rəqəm ikiqat arta bilər.

İllik dəstəyin üçqat artırılması çağırışı ötən il Braziliyada keçirilən iqlim konfransında razılaşdırılıb və "kollektiv tapşırıq" mənasını verən yerli ifadəyə əsaslanan portuqal sözü olan "Global Mutirao" kimi tanınan əsas nəticə mətninin bir hissəsidir. Bu məqsədə nail olunsa belə, illik 85 milyard dollardan 120 milyard dollara qədər proqnozlaşdırılan maliyyələşdirmə inflyasiyadan sonra təxmini ehtiyacların yalnız 20-29 faizini ödəyəcək.

İ. Andersen vurğulayıb: "Türkiyədə keçiriləcək iqlim konfransı - COP31-də ölkələr 2035-ci ilə qədər uyğunlaşma maliyyəsini üçqat artırmaq üçün COP30 "Global Mutirao" arzusuna çatmaq məqsədilə səyləri gücləndirməyə diqqət yetirməlidir, eyni zamanda, həyatları xilas etmək, itki və zərərlərin qarşısını almaq və iqtisadiyyatları qorumaq üçün daha yüksək səviyyəyə çatmaq lazım olduğunu başa düşməlidir".

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4286
Sifariş: 1480
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova